Günəş Şərqdən doğur!

№ 78 (5359), 2021-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 4 may 2021-ci il (çərşənbə axşamı)



## Yoluxma sayı 500-dən aşağı düşdü

Son sutkada 19 nəfər koronavirusdan vəfat edib

(Səh.8)

### Günün içindən...




## "Türk ocaqları" Şuşada kitabxana açmaq istəyir

**Mərkəzi Qərargah Ankarada yerləşən, 110 yaşlı "Türk ocaqları" təşkilatı Şuşada kitabxana yaratmaq istəyir.**

"Türk ocaqları"nın əsas qurucu babalarından olan Əhməd bəy Ağaoğlunun adını daşıyacaq kitabxananın ərsəyə gəlməsi üçün "Türk ocaqları" bütün imkanlara sahibdir.

(səh.3)

## İndiyədək 2 min 28 hektar ərazi minalardan təmizlənib



Ötən ay ərzində 285 hektar ərazi minalardan təmizlənib.

(səh.2)

# "Bütün gücümüzlə əl-ələ verərək çalışacağıq"




## Səfir: "Türkiyə bundan sonra da tərəddüd etmədən Azərbaycanı dəstəkləməyə davam edəcək"

**"Qarabağdakı qələbə ilə Türkiyə-Azərbaycan qardaşlığı yeni bir mərhələyə qədəm qoyub".**

Bunu dünən Türkiyənin Azərbaycanda yeni təyin olunmuş səfiri Cahit Bağçı keçirdiyi mətbuat konfransında deyib.

(səh.2)

## Lavrovun Bakı səfəri gərgin keçəcək

Masada iki mövzu var, birincisi, Şuşada qalıqları tapılan "İsgəndər-M" raketi ilə bağlıdır"

(səh.5)



## ✓ Hərbçilərimiz sərhəddə peşəkar davrandılar

"Hələ çoxlu sayda təxribatların şahidi olacağıq"

(səh.4)

## ✓ Bir azdan rusların da əli-qolu bağlanacaq

Qarabağda yalnız Azərbaycan qanunları işləyəcək

(səh.6)

## ✓ Eldar Həsənovun həbs müddəti daha 3 ay uzadıldı

(səh.7)

## ✓ Mümkün qədər karantin qaydalarını sərtləşdirmək lazımdır

Evdə müalicə olunan aktiv xəstə sayı həddindən artıq çoxdur

(səh.12)

## Gözəl Araz, gözün aydın!



"Dəmir yumruq"la alınan torpaqlarımıza dəmir yollar çəkirik

(səh.9)

## Elman Rüstəmovun heç vecinə də deyil

Məntiqsiz qərarlar qara bazarı dirçəldir

(səh.8)



# Qələbəmiz yeni bir reallıq yaratdı





## İlham Əliyev: "Türkiyə və Azərbaycanın bölgədə təsir imkanları artacaq"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının etimadnaməsini qəbul edib.**

Səfir Cahit Bağçı etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

**Sonra səfirlə söhbət edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Xoş gəlmisiniz, sizi salamlayıram. Əminəm ki, Azərbaycanda günləriniz xoş keçəcək. Əslində, vətəninizdəsiniz və əminəm ki, burada özünüzü evinizdəki kimi hiss edəcəksiniz.

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz hər zaman bir-birimizin yanındayıq. İkinci Qarabağ müharibəsi bunu bütün dünyaya bir daha göstərdi ki, Türkiyə-Azərbaycan bir yerdədirlər və əziz qardaşımın, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilk saatlardan bizi ruhlandırdı. Çünki müharibənin ilk saatlarından başlayaraq Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək vermişdir. Bu mənəvi və siyasi dəstək müharibənin son gününə qədər göstərildi. İkinci Qarabağ müharibəsində Qələbəmiz əlbəttə ki, bölgədə yeni bir reallıq yaratdı. Türkiyə və Azərbaycan bölgədə öz imkanlarını genişləndirdilər, bizim rolumuz, təsir imkanlarımız artdı və artacaq. Birgə həyata keçirdiyimiz bütün layihələr, təşəbbüslər bölgədə sabitliyin, sülhün təmin edilməsi üçün önəmli rol oynayır.

Bizim əlaqələrimiz haqqında saatlarla danışmaq olar, siz bütün bunları yaxşı bilirsiniz. Əlaqələrimizin təməlində xalqlarımızın qardaşlığı və liderlərin siyasi iradəsi dayanır. Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bundan sonra da bütün məsələlərdə bir-birini dəstəkləyəcək, bütün məsələlərdə bir-birinin yanında olacaq və öz əməli işləri, addımları ilə yaşadığımız bölgədə sülhün bərqərar olmasında səylərini davam etdirəcəklər.

Mən əminəm ki, siz fəaliyyətiniz müddətində bu əlaqələrin daha da inkişaf etməsi üçün öz səylərinizi göstərəcəksiniz. Sizə uğurlar arzulayıram və "Azərbaycana - Vətəninizə xoş gəlmisiniz!" deyirəm.

**Səfir Cahit Bağçı dedi:**

-Xoş gördük, cənab Prezident. İlk növbədə, məni qəbul etdiyiniz üçün təşəkkür edirəm, Zati-alinizi və hörmətli birinci xanımı salamlayıram.

Cənab Prezidentimizin Sizə salamları və ehtiramı var. Zəfəriniz mübarəkdir, təbrik edirik. İnşallah, mən fəaliyyət dönəmimdə əlaqələrimizin daha da inkişafına, daha da irəli aparılmasına səy göstərəcəyəm. Çox təşəkkür edirəm.

## Hulusi Akar: "PKK-nın içində ermənilər də var"



**"PKK kürd qardaşlarımızın təmsilçisi ola bilməz".**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib.

Nazir qeyd edib ki, Türkiyənin, Türkiyə Silahlı Qüvvələrinin kürdlərlə heç bir problemi yoxdur və bütün kürdlər Türkiyə Respublikasının bir nömrəli vətəndaşlarıdır: "PKK heç bir halda kürd qardaşlarımızın təmsilçisi ola bilməz. Onsuz da əsasən onlarda kimlik problemi var. PKK-nın içində erməni də var, avropalı, afrikalı da var, təəssüf ki, türk də var. Dolayısı ilə PKK terror təşkilatıdır. Türkiyənin tək hədəfi terrorçulardır".

## İndiyədək 2 min 28 hektar ərazi minalardan təmizlənib



**Ötən ay ərzində 285 hektar ərazi minalardan təmizlənib.**

Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı təqdim edib.

Məlumata görə, aprelin 1-dən 30-dək əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 364, tank əleyhinə 148 mina və 1098 partlamamış hərbi sursat aşkarlanıb.

Bu günə kimi azad olunmuş 2 min 28 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.



## İkili vətəndaşlıq faktını gizlədib

### Ermənistan baş prokurorluğu ölkə prezidenti barəsində cinayət işi açıb

**Ermənistan baş prokurorluğu ölkə prezidenti Armen Sarkisyanın ikili vətəndaşlıq faktını gizlətməsi barədə cinayət işi açıb.**

Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, bunu Ermənistanın Vəkillər palatasının rəhbəri Ara Zohrabyan deyib.

O bildirib ki, prokurorluq cinayət işini 53 vəkilin 30 mart tarixli müraciəti əsasında sənədlərin saxtaşdırılması maddəsi ilə açıb.

Qeyd olunur ki, Armen Sarkisyan 2003-2012-ci illərdə Böyük Britaniya vətəndaşlığına malik olub.

Ermənistan qanunlarına əsasən, ölkə prezidenti seçilməmişdən altı il əvvəl Ermənistan vətəndaşlığı almalıdır.

Vəkillər iddia edir ki, A.Sarkisyan 2018-ci ildə 6 il tam başa çatmamış, qanunu pozmaqla prezident seçilib.

# "Bütün gücümüzlə əl-ələ verərək çalışacağıq"

### Səfir: "Türkiyə bundan sonra da tərəddüd etmədən Azərbaycanı dəstəkləməyə davam edəcək"



"Qarabağdakı qələbə ilə Türkiyə-Azərbaycan qardaşlığı yeni bir mərhələyə qədəm qoyub".

Bunu dünən Türkiyənin Azərbaycanda yeni təyin olunmuş səfiri Cahit Bağçı keçirdiyi mətbuat konfransında deyib.

Səfir bildirib ki, Türkiyə haqq işində qardaşının yanında dayanaraq hər cür dəstəyi verib və bundan sonra da tərəddüd etmədən Azərbaycanın yanında olmağa və dəstəkləməyə davam edəcək: "Bundan sonra qardaşlıq əlaqələri güclənəcək və bu qələbə ilə yeni körpülər inşa ediləcək. Azərbaycan xalqı hər zaman yanında qaya kimi möhkəm dayanan bir qardaşa sahib olduğunu gördü və əmin oldu".

*C. Bağçının sözlərinə görə, tarixi abidələrin, mədəniyyət ocaqlarının, müqəddəs yerlərin və əmlakların ermənilər tərəfindən vəhşicəsinə məhv edilməsi insanlıq adına cinayətdir:* "Türkiyə Qarabağın sürətli inkişafı üçün yenidən qurulmasında, insanların yerləşdirilməsində və tərəqqisində dəstəyini verəcək. Türkiyə min illərdir sivilizasiyaların beşiyi olan Qarabağın yenidən möhtəşəm bir mədəniyyət mərkəzinə çevrilməsi üçün bütün təcrübə və imkanları ilə dəstək verməyə hazırdır. Yurdlarından ayrı düşən azərbaycanlı qardaşlarımız evlərinə qayıdacaq, torpaqları çiçəklənəcək, Qarabağ inkişaf edəcək. Qafqazın incisi Şuşanın və azad olan bütün Qarabağın tezliklə Türk dünyasının ən gözəl yurdlarından biri olması üçün bütün gücümüzlə əl-ələ verərək çalışacağıq".

**Türkiyə səfiri qeyd edib ki, əsas məqsəd ölkələr arasında əlaqələri siyasi, iqtisadi və mədəni sahə başda olmaqla, bütün sahələrdə dərinləşdirmək və artırmaqdır:** "Dövlətimiz və millətimizin maraqları naminə dostluqları daha güclü edəcəyik. Biz gələcəyi daha yaxşı görürük. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığın dünyada başqa bir nümunəsi yoxdur. Dünya Qarabağ zəfəri ilə iki qardaş ölkənin birliyinə və gücünə şahid oldu. Vəzifəmiz dostluq və qardaşlıq mayası ilə yoğrulmuş bu əlaqələrin və əməkdaşlığın səviyyəsini daha da yüksəltmək, bölgədə və dünyada güclü olmalarına töhfə verməkdir. Birlikdən qüvvət doğar. Səylərimiz birlik və dirilik üçün olacaq. Biz "gücümüzün birliyimizdə, birliyimizin gücümüzdə" olduğuna inanırıq. Heç bir qüvvə Türkiyə-Azərbaycan birliyini sarsıda bilməyəcək. Bizim vəzifəmiz iki qardaş xalqın əbədi olaraq bir bədəndə döyünən tək ürək kimi olmasını təmin etməkdir".

# “Türk ocaqları” Şuşada kitabxana açmaq istəyir






**Mərkəzi Qərargah Ankarada yerləşən, 110 yaşlı ”Türk ocaqları” təşkilatı Şuşada kitabxana yaratmaq istəyir. ”Türk ocaqları”nın əsas qurucu babalarından olan Əhməd bəy Ağaoğlunun adını daşıyacaq kitabxananın ərsəyə gəlməsi üçün ”Türk ocaqları” bütün imkanlara sahibdir.**

Bu barədə Azərbaycan ”Türk ocağı”nın sədri, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı ”Şərq.az”a məlumat verib.

A.Aşırlı qeyd edib ki, Türkiyədə və Avropanın bir çox ölkəsində 200-dən çox şöbəsi olan ”Türk ocaqları” Şuşanın tarixi önəmini və mədəniyyət paytaxtı kimi gərəkliyini çox gözəl anlayır və azad Şuşada gözəl bir kitabxana tikib, Türk Dünyası mütəfəkkirlərinin əsərləri ilə zənginləşdirməyi arzu edir. Türkiyənin dövlətçilik tarixində böyük rolu olan ”Türk ocaqları”nın əsasının Əhməd bəy Ağaoğlunun evində qoyulmasına diqqət çəkən A.Aşırlı deyib: ”Cənab Ali Baş Komandan İlham Əliyev ”Türk ocaqları”nın bu təklifinə müsbət rəy versə, qısa müddət ərzində bu proseslərə başlanıla bilər. ”Türk ocaqları”nın hər bir üzvü bu işi qəlbən, ruhən həyata keçirməyə hazırdır”.

A.Aşırlı qeyd edib ki, Ə.Ağaoğlu, Əli bəy Hüseynzadə kimi mütəfəkkirlərin Türkiyədə quruculuğunda iştirak etdiyi ”Türk ocaqları” 44 günlük Vətən Savaşında daim Azərbaycanın yanında olub, qızğın döyüşlər zamanı Tərtərə, Bərdəyə və Gəncəyə 420 ailə üçün humanitar yardım göndərib. Əksər hospital və xəstəxanalarda ”Türk ocağı”na mənsub onlarla milliyyətçi türk həkimi təmənnasız yaralıları əməliyyat edib həyata qaytarıblar.



# Moskva bölgədə sülhün bərpasında maraqlı görünmür

*“Dövlətimiz baş verənlərə öz etirazını bildirməlidir”*

“Azərbaycanın icazəsi olmadan Qarabağa bir daş belə gətirilə bilməz”



Rusiya sülhməramlıları Kəlbəcər rayonuna 420 ton humanitar yükün çatdırılmasını təmin edib. Bu barədə Rusiya Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Sosial obyektlərin və yaşayış evlərinin enerji və su təminatı sistemlərinin bərpa olunması məqsədilə 20 hərbi və müşayiət maşınlarından ibarət Rusiya Humanitar Reaksiya Mərkəzinin karvanı 420 ton yükü Suqovuşan-Kəlbəcər marşrutu ilə (ərzaq, tikinti materialları və qurğuları) Kəlbəcər rayonuna çatdırıb.

Rusiya MN-in məlumatında qeyd olunub: “Yardım Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli sazişi çərçivəsində Azərbaycan tərəfinə göstərilib”.

Ümumilikdə, Rusiya sülhməramlılarının köməyi ilə təxminən 2800 tondan çox yük daşınıb.

**AĞ Partiya sədri Tural Abbaslı ”Şərq”ə bildirib ki, Rusiyanın Qarabağda sülhməramlı missiyası çərçivəsində atdığı addımlar qətiyyən yolverilməzdir:** ”Bu addımlar nə dövlət, nə millət, nə iqtidar, nə də müxalifət olaraq bizi razı salır. Çünki rus hərbçiləri özlərini daha çox işğalçı ordunun nümayəndələri kimi aparır, nəinki sülhməramlı qüvvələri olaraq. Təbii ki, belə olduqda Azərbaycanda kifayət qədər narazılıq yaranır, hətta rus sülhməramlıların regionu vaxtından əvvəl tərk etməsi barədə tələblər irəli sürülə bilər. Rusların əsasən Xankəndidə parad keçirmək təşəbbüsü və yaxud sülhməramlı missiyasına aid olmayan məsələlərə müdaxilə etmələri Azərbaycanın müstəqil dövlət olaraq suverenliyinə təhdiddir. Dövlətimiz baş verənlərə öz etirazını bildirməlidir. Bu faktlar tək Rusiyada yox, beynəlxalq ictimaiyyətdə işıqlandırılmalıdır. Bununla da Rusiyanın regiondan çıxmasına nail olmaq lazımdır”.

T.Abbaslı vurğulayıb ki, rəsmi Moskva bölgədə sülhün bərpasında maraqlı deyil, əksinə, konfliktin və düşmənliyin davam etməsini istəyir: ”Çünki bölgədə qalmaq üçün bir bəhanələri olacaq. Əminəm ki, rus sülhməramlıları regiona zorla gəlməsəydilər, artıq dünyada Qarabağ adlı problem qalmayacaqdı. Ruslar məhz regionda problemin həll olunmaması üçün müdaxilələr edirlər və hazırda bu müdaxilələrdən irəli gələn addımlar atırlar. Düşünürəm ki, ölkəmizin mövqeyi sərt olmalıdır, müttəfiqlərimizlə Rusiyanın üzərinə getməliyik. Ümumiyyətlə, Azərbaycanın icazəsi olmadan Qarabağa bir daş belə gətirilə bilməz. Çünki Qarabağ bizim ərazimizdir. Hətta bunu Rusiya Prezidenti Vladimir Putin də qeyd edib. Rusların Kəlbəcərə materiallar daşımasına hansısa ad vermək mümkün olmur. Əsas məsələ odur ki, baş verənlərə kəskin etirazımızı bildirək”.

**Yeganə Bayramova**

# Ermənistan cəmiyyəti yeni müharibədən qorxur

“Sarkisyan kiminlə birləşir-birləşsin, seçkilərdə ona köməyi olmayacaq”



**Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın rəhbərlik etdiyi Respublika Partiyası növbədənkənar parlament seçkilərində iştirak edəcək. Partiyasının İcraiyyə Komitəsinin iclasında çıxış edən Sarkisyan bildirib ki, seçkilərə sabiq Milli Təhlükəsizlik Xidmətinin (MTX) rəhbəri Artur Vanetsyanın partiyası ilə birgə qatılmaq qərarı alıb.**

Onun fikrincə, bu, indiki məqamda ən düzgün addımdır. Sarkisyan tərəfdarlarına seçkilərin bütün detallarını Vanetsyanla müzakirə etdiyini də söyləyib. Görünən odur ki, seçkiyə hazırlıq prosesi çərçivəsində müxalifət öz gücünü mümkün qədər birləşdirməyə çalışır. Məqsəd müxalifətdən səs və reytinq baxımından daha güclü olan baş nazir Nikol Paşinyanı seçkidə məğlub etməkdir. Lakin ekspertlərə görə, Ermənistan müxalifətinin tam birləşməsi mümkün deyil, hətta qarşıdakı günlərdə parçalanmaları olması qaçılmazdır.

**Ermənistanda cərəyan edən prosesləri ”Şərq”ə təhlil edən politoloq Azər Qasımov bildirib ki, Paşinyana qarşı Sarkisyan və digər müxalifların birləşmə cəhdi məcburiyyət və bir az da ümidsizlikdən doğan haldır.** Siyasi şərhçiyə görə, illərlə hakimiyyətdə olan ”Qarabağ klanı”nın üzvləri 44 günlük müharibədən sonra Paşinyanı suçlayaraq xal qazanmağa çalışsa da, əksinə, daha da dibə düşdülər: ”Xalqın müxalifətə nifrəti Sarkisyanı çox narahat edir və özünə müttəfiqlər axtarır. Erməni cəmiyyəti yeni müharibədən qorxur və bir daha Qarabağ avantürasına cəlb olunmaq istəmir. Sarkisyan kiminlə birləşir-birləşsin, seçkilərdə ona köməyi olmayacaq. Paşinyan 44 günlük müharibədən sonra erməni xalqının xəstə təfəkkürlü istəklərini bütünlüklə məhv etdi və əslində onları real həyata qaytardı. Ermənilərə mövcud həqiqətləri məğlub olmaqla göstərdi. Əslində Nikol Paşinyan müharibədən qabaq parlamentdə çıxışı zamanı münaqişənin sülhlə həlli üçün ictimaiyyətə, ölkənin siyasi elitasına müraciət etmişdi. Lakin müxalif qüvvələr bunu rədd etmiş və baş naziri xainliklə suçlamışdı”.

Analitik vurğulayıb ki, Azərbaycanın qələbəsi erməni ideologiyasına elə bir zərbə vurdu ki, onlar yüzillik yuxudan ayıldılar: ”Seçkilərə istər Sarkisyan, istərsə də Koçaryan bütün müxalifətlə birgə qatılsa belə Paşinyanın qələbə ehtimalı yüksəkdir. Ola bilsin, baş nazir Rusiyanın təkidi ilə hansısa rusyönlü siyasətçini vəzifəyə gətirsin. Ancaq Moskva da Paşinyanın erməni cəmiyyətindəki nüfuzunu bildiyi üçün onunla bütün məsələləri razılaşdırmağa məcbur olacaq”.

**İsmayıl Qocayev**

# General MTX-da dindirilib

## Ermənistanın sabiq Baş Qərargah rəisi barəsində cinayət işi başlanıb



**Ermənistan Silahlı Qüvvələrinin sabiq Baş Qərargah rəisi general-polkovnik Movses Akopyana ittiham irəli sürülüb və barəsində cinayət işi başlanıb.**

APA-nın xəbərinə görə, M. Akopyan bu barədə məlumatı ”Sputnik Armenia”nın əməkdaşına təsdiqləyib.

Milli Təhlükəsizlik Xidməti (MTX) onun barəsində cinayət məcəlləsinin 306-cı maddəsi (dövlət sirri təşkil edən məlumatı elan etmə) ilə cinayət işi başladıb.

General MTX-da dindirildiyini də vurğulayıb. Ondan yaşayış yerini tərk etməmək barədə iltizam alınıb. Xatırladaq ki, M. Akopyan ötən ilin noyabr ayında keçirdiyi böyük mətbuat konfransında bir sıra səs-küylü açıqlamalar verib.

# Qandinin heykəli təhqirə məruz qalıb

## Ermənilər hələ də faşist təfəkküründən uzaqlaşmayıb



**Hindistan Azadlıq Hərəkatının siyasi və ruhani lideri sayılan Mahatma Qandinin heykəli bu günlərdə Ermənistanda təhqirə məruz qalıb. Millətçi ermənilər İrəvanda ucaldılmış heykəli yandıraraq, vandalizm aktı törədiblər.**

Erməni radikallar bununla kifayətlənməyərək Hindistan liderinin heykəlini yumurta atəşinə tutub, Qandinin adı yazılmış lövhəni isə söküblər. Ermənistan KİV-ləri heykəlin təhqir olunmasına müxtəlif formada don geyindirməyə çalışıblar. Doğrudur, erməni millətçiləri Qandini sevməyə bilərlər. Amma faşist Njdeyə heykəl ucaldanların İrəvanda dünyaca məşhur bir siyasi, dini rəhbərin heykəlini sökməyə çalışması olduqca təzadlıdır. Ermənilərin sərsəm iddialarına görə, Hindistan lideri qondarma "erməni soyqırımı"nın baş verməsi faktını inkar edibmiş. Bu səbəbdən xalq arasında vandalların son addımı təqdir edilir.

**Mövzuya münasibət bildirən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, siyasi-şərhçi Tural İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, ermənilər tərəfindən Mahatma Qandinin heykəlinin təhqirə məruz qalması onların hələ də ifrat faşist təfəkküründən uzaqlaşmadığının bariz göstəricisidir:** "Ermənistanda o qədər faşist zehniyyat hökm sürür ki, bu ölkə tarixə, mədəniyyətə, ümumdünya, siyasi və mədəni irsinə qarşı vandallıq aktı törədirlər. Mahatma Qandinin heykəlinin Ermənistanda təhqirə məruz qalması xoşagəlməz hadisədir. Bu, Ermənistanın hələ də radikal, sağçı milliyyətçilik duyğularından, eyni zamanda ifrat faşist təfəkküründən uzaqlaşmadığının bariz göstəricisidir. Əslində bu günləri burada hökm sürən bu, faşizm ruhuna görə Ermənistanda hakimiyyətdə olmuş həm əvvəlki qüvvələr, həm də hazırda Paşinyan iqtidarı böyük məsuliyyət daşıyır. Çünki əvvəlki iqtidarı faşizmdə günahlandıran Paşinyanın özü iqtidara gəldikdən sonra ölkədəki milliyyətçi, aşırı faşist duyğusunu dəyişdirə bilmədi".

**T.İsmayılov hesab edir ki, Hindistan sırf Pakistanla Azərbaycanın dostluq və qardaşlıq münasibətlərinə görə cılız şəkildə Ermənistanla müttəfiq olduğunu göstərməyə çalışır:** "44 günlük Vətən müharibəsi dövründə bəzi hindistanlı blogerlərin sosial mediada Ermənistanı dəstəkləməsi də sırf Pakistanın Azərbaycanı qardaş görməyindən irəli gəlir. Lakin düşünürəm ki, Hindistan çox böyük bir səhvə yol verir. Çünki Azərbaycan-Pakistan mənəvi həmrəyliyə malik olsalar da, bizim cəmiyyətimizin hər zaman hind mədəniyyətinə, hind dəyərlərinə və fəlsəfəsinə böyük marağı olub. Qeyd edim ki, hətta uzun müddət hindistanlılar Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstəriblər. Bu baxımdan bu gün Mahatma Qandinin heykəlinin təhqir olunması Hindistana acı gerçəyi bir daha ortaya qoyur. Nəticədə göstərir ki, ermənilərə görə azərbaycanlılarla münasibəti korlamaq olmaz".

**Aynurə Pənahqızı**

## Şuşada Türkiyə konsulluğu açılacaq

Aqil Abbas: "Sevinərik. Gəncədə, Naxçıvanda Türkiyənin konsulluğu varsa, qoy, Qarabağda da olsun"



**Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç "İTV Xəbər"ə müsahibə verib.**

O, Şuşada Türkiyə konsulluğunun açılması istiqamətində konkret qərar verildiyini bildirib.

"Bir xoş xəbər verim. Tezliklə Şuşada konsulluğumuz açılacaq" - deyə, H.Kılıç əlavə edib.

**Mövzu ilə bağlı millət vəkili Aqil Abbas da fikirlərini "Şərq"lə bölüşüb:** "Məsələ hələ dəqiqləşməyib. Amma əlbəttə, açılsa, yaxşı olar. Sevinərik. Gəncədə, Naxçıvanda Türkiyənin konsulluğu varsa, qoy, Qarabağda da olsun. Binanın Şuşada, ya başqa yerdə tikilməsinin fərqi yoxdur, əsas odur ki, Qarabağda da qardaş ölkənin konsulluğu fəaliyyət göstərsin".

**Kənan**

# Hərbçilərimiz sərhəddə peşəkar davrandılar



## "Hələ çoxlu sayda təxribatların şahidi olacağıq"

**Sosial şəbəkələrdə Azərbaycan-Ermənistan sərhədçiləri arasında yaranmış konfliktin videogörüntüləri yayılıb. Sözügedən hadisə Azərbaycan-Ermənistan sərhədinin Zəngilan istiqamətində baş verib.**

Görüntülərdə Azərbaycan Dövlət Sərhəd Xidmətinin hərbçiləri ilə erməni hərbçiləri arasındakı mübahisə yer alıb.

**Baş verənləri "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli bildirib ki, noyabrın 10-da bağlanan üçtərəfli razılaşma əsasında sərhədlərin müəyyənləşməsi prosesi davam etdirilir:** "Müxtəlif versiyalar var ki, erməni hərbçilər və yaxud rus sülhməramlıları tərkibində xidmət edənlər hər kimlərdirsə, "GPS" sistemi ilə məhz ərazilərin ölçüsünü müəyyən edirlər. Ermənilər çalışırlar ki, yanlışlıq olsun və Azərbaycanın sərhədlərinin içərisinə doğru irəliləsinlər. Azərbaycan DSX əməkdaşları da bu duruma çox peşəkar şəkildə cavab verdilər.

Həm əsgərlərimiz, həm də zabitlərin hazırlıq peşəkarlığının hansı səviyyədə olduğu göründü. Bütün bunlar bizim həqiqətən də haqlı olmağımızın, ordumuzun peşəkarlıq səviyyəsinin göstəricisi idi.

Dünyada bu cür təxribat halları çox olur. Lakin əsas odur ki, normal qaydada səbr edib, proseslərdə partladan tərəf olmayasan. Çünki həm haqlıyıq, həm qalib gəlmişik, həm də danışıqlar prosesinin bir hissəsi olduğundan qarşı tərəfin əməkdaşları əllərini sallaya-sallaya gəlirlər".

Ə.Əlibəylinin sözlərinə görə, videogörüntüləri normal qarşılamaq lazımdır: "Çünki o görüntülər prosesin tərkib hissəsidir. Çoxlu sayda təxribatların şahidi olacağıq. Buna başqa formada məna verməyə ehtiyac yoxdur. Önəmli olan odur ki, iki dövlət arasında demarkasiya, daha sonra delimitasiya prosesi bitsin. Bu, hətta dövlətlərarası müqavilələrin də imzalanmasına gətirib çıxara bilər".

**Yeganə Bayramova**

**Sosial şəbəkələrdə İranın Ermənistan vasitəsilə Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazilərinə "yardım" daşımasını əks etdirən görüntülər yayılıb. Təbii olaraq ölkə ictimaiyyəti Laçın dəhlizi vasitəsi ilə Qarabağa "humanitar yardım" adı altında müxtəlif hərbi avadanlıqların ötürülməsinə sərt etiraz edir.**



# Mütləq Laçında öz postumuzu qurmalıyıq

## Heç bir ölkənin nümayəndəsi Azərbaycanın icazəsi olmadan Laçın dəhlizindən keçə bilməz

Çünki bu yardımların Ermənistan ərazisindən, Laçın dəhlizi vasitəsi ilə edilməsi və bundan Azərbaycanın məlumatsız olması 10 noyabr bəyanatının ciddi şəkildə pozulmasıdır. Ona görə də tələb edilir ki, Azərbaycan Ordusu mütləq Laçın dəhlizinə nəzarəti öz əlinə almalı, yaxud dəhlizə nəzarəti rus sülhməramlıları ilə birlikdə təşkil etməlidir. Əlbəttə, Azərbaycana hər hansı ölkədən humanitar yardımın gəlməsində qeyri-adi bir şey yoxdur. Qarabağ da Azərbaycan ərazisidir, ora da humanitar yardım gələ bilər. Ancaq bu yardım mütləq Azərbaycan hökumətinin razılığı və icazəsi ilə olmalıdır. Ümumiyyətlə isə Rusiya sülhməramlılarının müvəqqəti onların nəzarətində olan Azərbaycan ərazilərinə "humanitar yardım" çatdırılmasına şərait yaratmaq səlahiyyəti yoxdur. Bu, Azərbaycan Dövlət Sərhəd Xidmətinin səlahiyyətində olan məsələdir.

**Cənubi Qafqaz Sülh və Münaqişə İnstitutunun rəhbəri Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, yük maşınlarından ibarət olan bu yardım birbaşa separatizmə dəstək və İranın Azərbaycanın ərazi bütövlüyünü pozmasıdır.** Analitik qeyd edib ki, rəsmi Tehran ilk növbədə Azərbaycandan icazə almalı idi: "Heç bir ölkə Laçın dəhlizindən icazəsiz keçə bilməz. Keçərsə, Azərbaycanın ərazi bütövlüyünü pozmuş olar. Kim qarantiya verə bilər ki, İran maşınlarında separatçı ermənilərə silah gətirilməyib?! Ona görə də Laçın dəhlizində mütləq öz postumuz qurulmalıdır. Rusiya sülhməramlıları da İran tırlarını Azərbaycan ərazisinə buraxmaqla razılaşmanı pozur. Üçtərəfli sazişə əsasən, xarici ölkə vətəndaşları Laçın dəhlizindən buraxılmamalıdır. Göründüyü kimi İran və Rusiya koordinasiyalı şəkildə ermeni separatçılarına logistik dəstək verir. İrana nota verilməlidir. Həmçinin, Rusiyadan konkret tələb edilməlidir ki, sülhməramlı qüvvələrin fəaliyyətində korrektlər etsin. Əks təqdirdə ilin sonunda Qarabağı tərk etsinlər".

**İsmayıl Qocayev**

# Ermənistan təşviş içərisindədir

## Xankəndi və ətraf ərazilər tezliklə Azərbaycanın nəzarətinə keçəcək





### “Yerli ermənilərdən kimsə Azərbaycan vətəndaşlığını qəbul etmirsə, gedib Ermənistanda, yaxud başqa ölkədə yaşaya bilər”

Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidovun sosial şəbəkə hesabında yazdığı "iyunda Xankəndi Bakının tam nəzarətində olacaq - istər güc, istərsə sülh yolu ilə" sözləri Ermənistanda ciddi təşvişə və müzakirələrə səbəb olub. Ə.Şahidov tvitərdə “Xankəndi şəhərinin Azərbaycan ordusunun nəzarəti altına keçəcəyi və orada yaşayan erməni mülki vətəndaşların öz yaşayışlarına davam edə biləcəklərini" qeyd edib.

İctimai fəalın erməni ictimaiyyətində qalmaqala səbəb olan məlum tvitindən sonra Qarabağ separatçıları ”təkzib” yayıblar və Xankəndini ”rus sülhməramlıları və ”artsax ordusu”nun qoruduğunu” elan ediblər. Qarabağdakı erməni separatçılarının keçmiş ”ombudsmanı” kimi təqdim edilən Ruben Məlikyan deyib ki, ”insanlar artıq açıq şəkildə danışır ki, iyunda Xankəndi Bakının nəzarətinə keçəcək”. Qarabağdakı erməni separatçılarının ”parlament sədri” Artur Tovmasyan isə ”ATƏT-in Minsk qrupunun fəaliyyətini davam etdirməsini zəruri sayaraq, Azərbaycanın ünvanına ittihamlar səsləndirib. Tvit xaricdə yaşayan erməni diasporası arasında da geniş müzakirələrə yol açıb. Ermənilər israrla anlamaq istəmirlər ki, hazırda rus sülhməramlılarının müvəqqəti nəzarətində olan Xankəndi və digər ərazilər 10 noyabr Bəyannaməsinin şərtlərinə uyğun olaraq, Azərbaycan hərbçilərinin nəzarətinə veriləcək. Təbii ki, həmin ərazilərdə erməni hərbi birləşmələri olmayacaq. Yerli ermənilər isə öz həyatlarına Azərbaycan vətəndaşı kimi davam edə biləcəklər.

**Məlum qalmaqalla bağlı “Şərq”ə danışan hüquq müdafiəçisi Əhməd Şahidov vurğulayıb ki, sözləri Ermənistanda böyük ajiotaja səbəb olub.** Ekspertin sözlərinə görə, minlərlə erməni siyasətçi, jurnalist, fəallar, blogerlər, diaspora nümayəndələri tvitimə sərt etiraz bildilər: ”Bir qisim yalan olduğunu iddia etdi. Digərləri isə Nikol Paşinyanı ittiham etdilər ki, bu, baş nazirin günahıdır. Hətta votsap nömrəmə təhqirlər yazdılar, təhdid etdilər. Tviter hesabımın bağlanması üçün çalışdılar. Bütün bunlar erməni cəmiyyətində seçkiqabağı növbəti eyforiyanın göstəricisidir. Ermənistan əhalisi panika halındadır. Mən bu söz-söhbətin ardınca bildirdim ki, Xankəndi və Qarabağın digər əraziləri Azərbaycan Respublikasının beynəlxalq çərçivəsində tanınmış əraziləridir. Heç bir ölkə, hətta Ermənistan belə həmin əraziləri ”müstəqil ölkə” kimi tanımır. O torpaqlar birmənalı və mübahisəsiz Azərbaycana məxsusdur. 44 günlük savaşda Azərbaycan öz ərazilərini işğaldan azad etmək üçün hərbi əməliyyatlara başladı. Noyabrın 8-9-da Xankəndinin bir addımlığına çatmışdıq. Məhz Ermənistan tərəfinin kapitulyasiya qərarı və Rusiyanın vasitəçilik missiyasını üzərinə götürməsi hərbi əməliyyatların dayanmasına səbəb oldu. Əks təqdirdə ordumuz Xankəndi və ətraf yerləri çox asan şəkildə erməni terrorçularından təmizləyəcəkdi”.

**Ə.Şahidov xatırladıb ki, 10 noyabr razılaşmasının məntiqi, məqsədi və hədəfi odur ki, Ermənistan təslim olur, zəbt etdiyi bütün əraziləri boşaldır.** Nəticədə Xankəndi və ətrafına yerli ermənilərlə yanaşı, azərbaycanlılar da qayıdır və birgəyaşayış başlayır: ”Bu prosesə qarantor ölkə kimi Rusiya sülhməramlıları nəzarət edir və 5 il ərzində regionda qalır. Növbəti 5 ildə tərəflərdən biri razılıq verməzsə, rus qoşunları Qarabağdan çıxır. Heç bir halda Xankəndi və ətraf rayonlar erməni silahlılarının, yaxud rusların nəzarəti altında qala bilməz. Bu ərazilər zamanla Azərbaycana təhvil veriləcək. Cənab Prezident başda olmaqla, digər rəsmilər bu reallığı açıq şəkildə dəfələrlə bəyan ediblər. Nəyə görə Füzulidə, Zəngilanda, Şuşada və digər rayonlarımızda intensiv şəkildə yenidənqurma işləri aparılır? Məqsədimiz Xankəndi və digər ərazilərimizi də tam nəzarət altına almaq, suveren hüququmuzu sonadək bərpa etməkdir. Yerli ermənilərdən kimsə Azərbaycan vətəndaşlığını qəbul etmirsə, gedib Ermənistanda, yaxud başqa ölkədə yaşaya bilər. Görünən odur ki, ermənilərin bu reallığı qəbul etməsi bir qədər zaman alacaq. Ona görə də ara-sıra bu həqiqəti ermənilərə təlqin etmək lazımdır. 44 günlük savaş bitsə də, iki ölkə arasında informasiya müharibəsi davam etməkdədir. Məhz bu tviti atmaqla ermənilərə məlum həqiqəti yenidən xatırlatmaq istədim”.

**Ekspert Xankəndi ilə bağlı niyə konkret iyun ayını qeyd etməsinə də aydınlıq gətirib:** ”İyun ayında Ermənistanda növbədənkənar parlament seçkiləridir. Nikol Paşinyan 10 noyabr Bəyanatını imzalamaqla bir çox öhdəliklər götürüb. Ermənilər iddia edirlər ki, guya, üçtərəfli sazişdə elə bənd yoxdur. 10 noyabr üçtərəfli sazişi əsas, təməl müddəaları əhatə edir. İki səhifəlik kağızda Qarabağla bağlı bütün məqamlar detallı şəkildə əksini tapa bilməz. Ona qalsa, 10 noyabr anlaşmasında rus sülhməramlılarının həyata keçirdikləri çoxşaxəli fəaliyyət də yoxdur. Yaxud nəqliyyat dəhlizi və s. layihələrlə bağlı ətraflı izahat da sazişdə əks olunmayıb. Amma bu o demək deyil ki, anlaşmada konkret ifadə olunmayan bəzi mühüm məqamlar reallaşmayacaq. Bizim üçün əsas məsələ Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasıdır”.

**İsmayıl Qocayev**

# 75 nəfər bitərəf qalıb

## Ermənistan parlamenti Paşinyanı Baş nazir seçməyib



**Ermənistan parlamenti dünən keçirilən xüsusi iclasında Nikol Paşinyanın Baş nazir postuna namizədliyinin lehinə səs verməyib.**

APA-nın TASS-a istinadən verdiyi məlumata görə, məqsəd növbədənkənar parlament seçkilərinin keçirilməsidir.

Paşinyanın Baş nazir seçilməsinin lehinə 1, əleyhinə 3 deputat səs verib, 75 nəfər bitərəf qalıb.

Spiker Ararat Mirzoyan N. Paşinyanın Baş nazir seçilmədiyini elan edib.

*Qeyd edək ki, Ermənistanda növbədənkənar seçkilərin bu il iyunun 20-də keçirilməsi gözlənilir. Seçkilərlə əlaqədar Baş nazir postundan istefa verən N. Paşinyan hazırda bu vəzifəni müvəqqəti icra edir. Parlamentdə bu gün keçirilmiş səsvermə isə növbədənkənar seçkilərin baş tuta bilməsi üçün prosedur xarakteri daşıyır.*

# Lavrovun Bakı səfəri gərgin keçəcək

## Masada iki mövzu var, birincisi, Şuşada qalıqları tapılan “İsgəndər-M” raketi ilə bağlıdır”



### “Bizi ən çox düşündürən isə minalanmış ərazilərin xəritəsidir”

Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Azərbaycana işgüzar səfər edəcək. O, mayın 10-11-də Bakıda olacaq. Ayın 5-6-da isə Ermənistan XİN rəhbəri ilə müzakirələr aparılacaq. Bir çox politoloqların fikrincə, Lavrovun səfəri çərçivəsində sürprizlər gözlənilir. Onların yaxşı və ya pis olduğunu isə danışıqlardan sonra biləcəyik.

**Siyasi analitik Turab Rzayevin fikrincə, əsas iki məsələ masaya yatırılacaq. O, bu barədə ehtimallarını ”Şərq”lə bölüşdü:** ”Hələ də yarımçıq qalan iki məqam var. Bunlardan birincisi, Şuşada qalıqları tapılan ”İsgəndər-M” raketi ilə bağlıdır. Rusiya Müdafiə Nazirliyinin ”Qarabağda ”İsgəndər-M” raketindən istifadə edilməyib” açıqlaması bizi qane etmir. Daha konkret cavab istəyirik. İkincisi isə üçtərəfli bəyanatın şərtlərinə əməl olunmur, sülhməramlılar funksiyalarından kənar işlə məşğuldurlar. Məsələn, niyə Qarabağda ev, hərbi obyekt tikilir? Rusiya Müdafiə nazirinin müavini Qarabağa səfər edir. Bu da yaxşı hal deyil. Ən azından əvvəlcə bizimlə razılaşdırılmalı idi. Eyni zamanda rus mətbuatında yeni Gömrük İttifaqı ilə bağlı məsələlər gündəmə gəlib. Fikrimcə, bu, təsadüfi deyil. Azərbaycanın ”nəbzini yoxlamaq” məqsədlidir”.

**T.Rzayevin fikrincə, görüş zamanı qarşılıqlı razılaşma da istisna deyil:** ”Rəsmi İrəvan erməni terrorçularının qaytarılmasına çalışır. Bizi ən çox düşündürən isə minalanmış ərazilərin xəritəsidir. Ermənistan və Rusiya rəsmiləri xəritənin onlarda olmadığını deyirlər. Lakin bu, inandırıcı deyil.

Niyə indiyədək nə bir nəfər rus, nə də erməni hərbçisi minaya düşərək həlak olmayıb?!

Deməli, müəmma var. Biz xəritənin verilməsi qarşılığında erməni terrorçuların düşmənə qaytarılmasına razıyıq. Hətta Avropa Şurasının son qərarı da bu barədədir. Sənəddə göstərilib ki, təkcə erməni terrorçuları deyil, həm də xəritə qaytarılmalıdır. Yəni Lavrov ermənilərə təzyiq göstərsə və ya xəritəni Moskva özü bizə versə, məmnuniyyətlə terrorçuları qaytararıq”.

**Kənan Novruzov**



## "Arzumuz indi reallaşdı"

### Akif Aşırlı: "Şərq TV" öncədən planlaşdırdığımız layihə idi



**"Zamanında "Şərq TV" üçün maliyyə ayıra bilmədik. "Şərq" qəzeti nəşrə başladığı zaman bizim "Şərq TV" adlı rubrikamız var idi. Orada müsahibələr aparır, televiziyanın görüntülərini sözlə ifadə etməyə çalışırdıq. İndi isə arzumuz reallaşdı və "Şərq TV" fəaliyyətə başladı".**

Bu sözləri "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı Modern.az-a açıqlamasında deyib. O, kiçik bir komanda ilə müəyyən texniki imkanlar yaratdıqlarını qeyd edib:

"Gündəlik debatlar formasında aktual mövzuların müzakirələrini həyata keçiririk, reportajlar hazırlanır. Bundan başqa, müəyyən veriliş formatları üzərində çalışırıq, planlarımız var. Biz bu layihəni "Şərq" qəzeti üzərindən həyata keçiririk. Layihə qəzetin ayaqda qalması, ictimai rəyə təsirinin artırılması üçün kağız və sayt variantına dəstək verəcək. Layihələrin hər biri birbirinə bağlıdır. Saytımız artıq çox aktiv şəkildə fəaliyyət göstərir, "Şərq" qəzeti üzərində yeni formatlar fikirləşmişik. "Şərq Media" qrupu koordinasiyalı şəkildə fəaliyyətini tənzimləyəcək".

# Bir azdan rusların da əli-qolu bağlanacaq

### Qarabağda yalnız Azərbaycan qanunları işləyəcək



**Xankəndidə separatçı "deputat"lardan olan Metaxe Akopyan Ermənistan mediasına müsahibə verib. M.Akopyanın dedikləri Qarabağdakı vəziyyəti anlamağa imkan verir. Onun söylədiklərindən çıxan nəticələr bunlardır.**

Birincisi, müharibədən 6 ay keçsə də, erməni əhalisinin həyatında heç bir irəliləyiş yoxdur, əksinə, sosial problemlər artıb və separatçı rejim problemlərin həlli ilə məşğul olmur, əhalinin bölgəni tərk etməsi perspektivi aktualdır.

İkincisi, qondarma rejimin daxilində çaxnaşma və qarşıdurma var.

Üçüncüsü, Xankəndi ətrafında zaman-zaman atəş səsləri eşidilir (bu, Akopyanın iddiasıdır).

Daha çox onun bu sözləri diqqət çəkir: "Rəhbərlikdən" (atəşlə bağlı - red.) soruşanda bizə deyirlər ki, bu normaldır, çünki ən azından bu şəhərin Azərbaycanın olduğunu nəzərə almalıyıq. Sülhməramlıların nə etdiyini soruşanda bildirirlər ki, onlarla danışmışıq, bunu tənzimləməyə çalışırlar.

Xankəndidə istədiyimizə nail olana qədər nə ermənilərə, nə də sülhməramlılara rahatlıq verməliyik.

**Siyasi şərhçi Samir Hümbətovun "Şərq"ə açıqlamasına görə, reallıq budur ki, hazırkı vəziyyətdə Azərbaycan qalibdir:** "Rus qoşunları bölgədədir və erməniləri ərazilərimizdən tam çıxara bilməmişik. Buna rəğmən qalib olan tərəf bizik. Ermənilər yaxşı başa düşürlər ki, artıq Ermənistanın elə gücü yoxdur ki, Qarabağa yerləşsinlər. Rusiya da o halda deyil ki, bölgəni Abxaziya və Osetiya vəziyyətinə gətirsin. Çünki Abxaziya və Osetiyada Rusiyanın qabağında duracaq güclü dövlət və Birgə Monitorinq mərkəzi yoxdur. Lakin Qarabağda var. Rusiyanı özbaşına buraxsaq, çox işlərə əl ata bilərdi, amma Türkiyənin bölgədə olması reallığı dəyişir.

Erməni xəbər saytlarında bəzi məlumatlara baxdım. Orada yazılır ki, "bu gün Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasında güclü qarşıdurmalar yaşanır".

**S.Hümbətovun fikrincə, artıq Qarabağ erməniləri yavaş-yavaş anlamağa başlayıblar ki, azərbaycanlılarla Azərbaycanın suverenliyi altında daha rahat yaşaya bilərlər, nəinki Ermənistanın:** "Çünki Azərbaycanın əlində iqtisadi resursları var. Ölkəmiz əhalini bu resurslarla təmin edəcək gücdədir, Ermənistan bunu edə bilmir. Bu gün rusların Qarabağa məcburən köçürdüyü ermənilər belə oradan gedirlər. Artıq Qarabağ ermənilərinin içində istər idarəçilikdə olan, istərsə də sadə vətəndaşlar başa düşürlər ki, onlar gec-tez azərbaycanlılarla birgə yaşamağa məcburdurlar. Əlbəttə, müəyyən infrastruktur qurulmalıdır ki, orada yaşayanlar arasında hər hansı bir təxribat baş verməsin. Bundan sonrakı mərhələdə ermənilərin atacağı addımlar Azərbaycanın maraqlarına uyğun olmalıdır. Özləri də bunu çox yaxşı başa düşürlər".

"Erməni "deputat"ın verdiyi bəyanat nəyə hesablanıb" sualına gəlincə, analitik vurğulayıb ki, Qarabağda yalnız Azərbaycan qanunları işləyəcək: "Müvəqqəti olaraq Rusiya bölgəyə hansısa maşın ötürə bilər. Qısa müddətdən sonra bu hallara rast gəlməyəcəyik. "Erməni deputatlar" da yaxşı başa düşürlər ki, qanunlarımızla yaşamağa məhkumdurlar".

**Yeganə Bayramova**

# "İdman zalları, hovuzlar, hamamlar açılmalıdır"

### Elnur Məmmədli: "Çünki qarşıda idmançılarımızı Tokio Yay Olimpiya Oyunları gözləyir"

"Ölkə Prezidenti işğaldan azad olunmuş ərazilərdəki hərbi hissədəki əsgərlərimizin idman zalında ağırlıq alətlərini qaldırmaqla yalnız idmana, sağlam həyata insanların maraq göstərməsini təbliğ etmədi, həm də Operativ Qərargaha mesaj göndərdi ki, idman zallarını açmaq lazımdır, insanlar normal şəkildə idmanla məşğul olmalıdır. Prezident hər məsələ ilə bağlı fərman, sərəncam verməz ki? Bəzən ifadələrlə, jestlərlə anlatmağa çalışır ki, nələri etmək vacibdir".

Bu sözləri millət vəkili Fazil Mustafa sosial şəbəkə hesabında qeyd edib. Deputat iddia edib ki, bizdə çevik jurnalistika yoxa çıxmış kimidir: "Olsaydı, Operativ Qərargahdakı səlahiyyət sahiblərindən ölkə Prezidentinin idmanla bağlı verdiyi mesajı necə anladıqlarını dərhal soruşardılar. Görək Prezidentin bu anlamlı davranışından doğru nəticə çıxarıb açacaqlarmı idman zallarını? Yoxsa absurd yanaşmanı bundan sonra da davam etdirəcəklər? Qapalı idman zallarının bağlı saxlanmasının pandemiya ilə yaxından-uzaqdan əlaqəsi yoxdur. Birbaşa idraksızlıqla bağlı məsələdir. Əks halda bu qərarın indiyədək normal izahını verərdilər".

**Sözügedən mövzu ilə bağlı Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti, olimpiya və ikiqat Avropa çempionu Elnur Məmmədli "Şərq"ə açıqlamasında vurğulayıb ki, idman zallarının açılması vacibdir:** "Çünki qarşıda idmançılarımızı Tokio Yay Olimpiya Oyunları gözləyir. Artıq yarışlara iki ay qalıb. Bildiyimiz kimi, bu çox mötəbər yarışdır. Buna görə də idmançılarımızın tam formada olması mütləqdir. Məlumdur ki, Azərbaycan bütün dünyada idman ölkəsi kimi tanınır. Hər olimpiadada idmançılarımız gözəl qələbələri ilə bizləri sevindiriblər. Amma təəssüflər olsun ki, bu dəfə işimiz Allaha qalıb. Çünki idmançılarımız düzgün məşq edə bilmirlər. Onların yarışlara qatılmaları üçün isə yaxşı formada olmaları mütləqdir".





*"Təklif edirəm ki, idmançılar həftədə iki-üç dəfə yoxlanışdan keçsinlər. Bundan sonra nə problem var ki? Bu günləri şahid oluruq ki, avtobuslar basabasdır, restoranlar doludur. Bəs burda COVİD-19 yoxdur?"*

**E.Məmmədli vurğulayıb ki, bu günləri bütün dünyada idman yarışları keçirilir:** "Ötən gün Cənab Prezident idman alətlərini qaldıraraq məşq etdi. Yəni bu onu göstərdi ki, idman sağlamlıqdır. Hər kəs formada olmalıdır. Bildiyimiz kimi, koronavirus xəstəliyinin ən böyük problemlərindən biri immunitetin zəif olmasıdır. İdman edən şəxslərdə isə immunitet yüksək olur. Düşünürəm ki, bu səbəbdən idman zalları, hovuzlar, hamamlar açılmalıdır. Bunlar hamısı bir-birilə bağlıdır. Çünki idmançılarımızın əzələ doldurmaları və çəki salmaları üçün bunların hər birinin açılması vacibdir. Ona görə də hesab edirəm ki, səlahiyyətli qurumlar düşünməlidir ki, artıq idman olmalıdır və idman zalları açılmalıdır. Heç olmasa, bu sahədə müəyyən proqramlar tərtib olunmalı və idmançılar məşqə başlamalıdır. Təklif edirəm ki, idmançılar həftədə iki-üç dəfə yoxlanışdan keçsinlər. Bundan sonra nə problem var ki? Bu günləri şahid oluruq ki, avtobuslar basabasdır, restoranlar doludur. Bəs burda COVİD-19 yoxdur? Hesab edirəm ki, peyvənd vurulanadək hansısa formada zallar açılmalıdır. Çünki idmançılarımız artıq formadan düşürlər".

**Aynurə Pənahqızı**

# Njdenin heykəli söküləcəkmi?



Ayyət Əhməd

**Faşist cəlladı Qaregin Njdenin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Xocavənddəki heykəlinin sökülüb-sökülməməsinə dair ziddiyyətli məlumatlar tirajlanır. Rusiyanın bəzi KİV-ləri heykəlin götürüldüyünü iddia edir, Ermənistanın Baş naziri Nikol Paşinyana yaxın media orqanları isə informasiyanın doğruluğunu təkzib edir.**

Məsələn, təsisçisi erməni olan fransızdilli sayt - "armenews.com" da "Əliyevin qıcıqlanmasına və Rusiyanın tələbinə baxmayaraq Njdenin Xocavənddəki heykəli sökülməyib" başlıqlı məqalə dərc olunub. Məqalədə Xocavəndin "meri" Edik Avanesyan heykəlin sökülməsinə dair xəbərləri yalanlayıb. O qeyd edib ki, heykəlin götürülməsinə dair yayımlanan reportaj dezinformasiyadır: "Q.Njdenin heykəli 2020-ci ilin 26 sentyabrında ucaldılıb. Heykəltəraş vaxtı çatdırıb, işi tam yekunlaşdıra bilmədi. Hazırda heykəldə qalan yarımçıq işlərin tamamlanması ilə bağlı heykəltəraşla müzakirələr aparılır. İndi o, heykəl üzərində emalatxanada, yaxud elə yerindəcə tamamlanma işlərinin aparılmasına dair qərar verəcək. Bu mənada hesab edirəm ki, Q.Njdenin heykəli ilə bağlı son günlərdə mətbuatda yayımlanan müxtəlif məlumatlar geri götürülməlidir. Heykəl barədə lazımsız fərziyyələrdən uzaq olmağı məsləhət görərdim".

*Qeyd edək ki, birincisi, E.Avanesyanın bu açıqlaması birmənalı təkzib kimi qiymətləndirilə bilməz. Onun "İndi heykəltəraş heykəl üzərində emalatxanada, yaxud elə yerindəcə tamamlanma işlərinin aparılmasına dair qərar verəcək" fikirləri, eyni zamanda Ermənistan parlamentinin deputatı Arman Babacanyanın "Njdenin Xocavənddə separatçılar tərəfindən ucaldılmış abidəsi söküləcək" açıqlaması heykəlin ən qısa müddətdə götürüləcəyi ehtimalını gücləndirir.*

Heç kimə sirr deyil ki, İkinci Qarabağ savaşında işğalçı Ermənistan tamamilə məğlub duruma düşdü. Onsuz da əlaziyən iqtisadiyyatı çökdü. Fakt olaraq elə "armenews.com"da dərc olunan daha bir yazıdan sitatlar gətirmək yerinə düşər.

Terrorçu başı Araik Arutyunyan keçirdiyi təcili və geniştərkibli iclasda bildirib ki, Əsgəranda 2000 hektardan çox ərazi Qarqar çayı üzərində inşa ediləcək keçiddən sonra əkin sahəsinə çevriləcək. Bundan başqa sayt yazır ki, müharibədən sonra mal-qaranın sayında 40 faiz azalma qeydə alınıb: "Məhz ona görə də bölgədə məskunlaşmış ermənilərin müharibədən sonra yaranmış sosial-iqtisadi çətinliklərini aradan qaldırmağa çalışırıq".

Eyni zamanda elə bu günlərdə qondarma qurumun "ombudsman"ı Artak Beglaryan qeyd edib ki, qondarma rejimdə müharibədən sonra 2019-cu illə müqayisədə Ümumi Daxili Məhsul (ÜDM) 35 faiz, yəni 224 milyard dram azalıb: "2019-cu ildə UDM 342 milyard dram idi, 2020-ci ildə 22 faiz azalaraq 270 milyard drama endi. 2021-ci ildə isə 224 milyard dram oldu".

Nəticədə sosial, iqtisadi və siyasi böhrandan irəli gələrək Baş nazir Nikol Paşinyanın istefasına dair etiraz səsləri yüksəldi.

"Qarabağ klanı"nın üzvləri bu "kart"dan istifadə edərək aktiv siyasi meydana qayıtma istəyinə düşüblər və ciddi-cəhdlə buna nail olmağa çalışırlar. Bütün bunları nəzərə alıb, Xocavəndin "meri" Edik Avanesyanın məlum açıqlamasını daxili auditoriyaya hesablanmış manipulyasiya kimi şərh etsək, yanılmarıq. Bir sözlə, "mer" məlum bəyanatla daxili qovğanı sakitləşdirməyə çalışır. Amma bunun effektiv olacağı inandırıcı görünmür.



İkincisi, "Rusiyanın tələbinə baxmayaraq Njdenin Xocavənddəki heykəli sökülməyib" bəyanatı işğalçının Qarabağda sülh və təhlükəsizliyi təmin etməyi öhdəsinə götürən Rusiya və rus sülhməramlılarına meydan oxumaq deyilmi? Kreml buna niyə susur? Şübhəsiz, rəsmi Moskvanın proseslərə "lal" qalması, işğalçıya pressinq nümayiş etdirməməsi bu işdə Rusiyanın "əl"inin olmasına dair təsəvvürləri artırır. Bəlkə, məlum nifaq toxumunu səpən elə Kremldir, bölgədə rus sülhməramlılarının sayının artırılmasına zəmin yaratmaq məqsədilə yeni təxribat planı hazırlayır? Bu məqamda beyinlərdə spontan olaraq sual hasil olunur: necə olur ki, ruslar 10 noyabr sazişindən sonra Qarabağa 52 min 473 ermənini (bəzi mənbələr bu rəqəmlərin daha böyük olduğunu iddia edirlər) qaytara bilir, amma Azərbaycan ərazisində, tarixən elə özlərinə də yağı kəsilən, faşist ideologiyasına xidmət etmiş Q.Njdenin heykəlinin götürülməməsinə süst yanaşır? Bu, təsadüfdürmü? Əlbəttə, deyil. Görünür, Kreml bölgədəki çirkin oyunlarını davam etdirmək niyyətindədir. Amma türk əsgərlərinin gəlişi palitrası qarışmış Qarabağ bölgəsindəki məkrli senarilərə nöqtə qoyacaq. Bölgənin təhlükəsizliyinin təminatına dair yeni plan hazırlanacaq və rəsmi Moskva bununla razılaşmaq məcburiyyətində qalacaq. Çünki buna məhkumdur. Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu həm Rusiya özü, həm də Böyük Britaniya daxil dünyanın aparıcı ölkələri təsdiqləyiblər. BMT-nin 4 qətnaməsi də ortadadır. Həmçinin Rusiya-Türkiyə arasında "S-400" raket kompleksləri ilə bağlı əldə olunan razılaşma da rəsmi Moskvanın manevr imkanlarını çərçivəyə salır. Belə bir vəziyyətdə Kreml Ermənistan kimi "duz yükü"nü, Paşinyan kimi "siyasi meyit"i daşımaq iqtidarında və həvəsində deyil.

Üçüncüsü, "Əliyevin qıcıqlanmasına baxmayaraq Njdenin Xocavənddəki heykəli sökülməyib" ismarışına gəlincə, görünür, düşmən hələ də "Dəmir yumruq"dan yaxşı nəticə çıxara bilməyib və provokativ addımlarını davam etdirmək istəyir. Amma bu ölkənin gələcəyini, taleyini düşünən müstəqil erməni politoloqlar öz ölkələrindən bu sayaq təxribatları dayandırmasını, Azərbaycan və Türkiyə ilə kommunikativ xətlərin açılmasını tələb edirlər. Türkiyə amilinin Qarabağdakı mövcudluğu və bu dəfə də müharibə başlayarsa, Rusiyanın Ermənistanı xilas edə bilməyəcəyini bəyan edirlər. Qeyd edək ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ötən çıxışlarının birində buna dair xəbərdarlıq mesajı verdi. Düşmənə "Dəmir yumruğu" unutmamağı və lazım gələrsə, bu yumruğun yenidən işə düşəcəyini aydın şəkildə ifadə etdi. Yəni anti-terror əməliyyatlarının bərpa olunmasını istisna etmədi. Şübhəsiz, məğlubiyyətdən sonra daxili və xarici siyasətində xaotik duruma düşən Ermənistan onu da nəzərə almalıdır ki, bu dəfə Azərbaycanın "əli" daha güclüdür. Bunu həm Türkiyə faktoru, həm də müharibədən qalib xalq, qalib ölkə kimi çıxmağımızla izah edə bilərik. Bir sözlə, düşmən dərk etməlidir ki, "Dəmir yumruq" bir daha da havaya qalxarsa, zərbə öldürücü olacaq.

Dördüncüsü, türklərin bölgəyə ayaq basdığı gündən, yəni Ağdamda Türkiyə-Rusiya birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması və Şuşada Türkiyə konsulluğunun açılmasına dair siqnallardan sonra sanki N.Paşinyana yaxın erməni media quruluşlarında Kreml əleyhinə məqalələrin tirajlanması ilə bağlı "düyməyə basdılar". Bu da Rusiyanın müəyyən dairələrində sərt təpki və ritorika ilə qarşılanır. Ona görə ki, hazırda ABŞ-da hakimiyyətə gələn Co Bayden administrasiyasının hakimiyyətlərinin ilk günlərindən Navalnı olayı, Türkiyəyə "S-400" raket komplekslərini satması, "İsgəndər-M" cinayəti, Ukraynadan Krımın, Donbassın Gürcüstandan Abxaziya və Şimali Osetiyanın ilhaqı, Suriya, eləcə də İraqdakı gəlişmələrlə bağlı Rusiyaya sanksiyalar tətbiq edilir. Belə bir məqamda iqtisadiyyatı, hətta müstəqilliyi Kremldən asılı olan marionet Ermənistanın üzünü Qərbə, Amerikaya çevirməsi ilə "şimal ayısı"nın qəzəbinə tuş gələr ki, bunun da nəticəsi rəsmi İrəvanın sonu deməkdir. Bir sözlə, türk hərbçisinin bölgədə olması, Ermənistana "soyuq duş" effekti yaşadır. Bununla belə düşmən anlamalıdır ki, inkişafına gedən yol Türkiyə və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdən və konstruktiv münasibətlər qurmaqdan keçir. Başqa yolu yoxdur.

## İsraildə səfirliyimizi açmağa heç bir maneə qalmayıb

### Amma bu xəbərdən sonra İrandan hücumların artacağına hazır olmalıyıq

**"Azərbaycanın İsraildə səfirliyinin açılmamasının səbəbi Qarabağ münaqişəsinin mövcud olduğu dövrdə İranın narazılığını daha da artırmamaq idi".**

Bunu siyasi şərhçi Asif Nərimanlı feysbuk səhifəsində yazıb. Analitik bildirib ki, Bakıya gələn ərəb turistlərindən tutmuş İsrail istehsalı olan filmlərdə Azərbaycanın adının keçdiyi xırda kadra qədər hər şeyi özünün "dövlət təhlükəsizliyinə təhdid" kimi yozan İran regionda ən çətin anlayan ölkədir: "Bu baxımdan Azərbaycanın səfirlik məsələsində gözləmə mövqeyini İsrail də anlayışla qarşılayırdı. İndi ərazilər azad olunub və prinsipcə, gecikmiş işi yerinə yetirməyin önündə maneə qalmır. Məlumatlar da bu istiqamətdə prosesin başladığı yönündədir. İranda isə artıq mart ayından etibarən, "sionist rejim Qarabağ da İrana təhdiddir" iddiaları üzərindən çıxışlar edirlər. Səfirlik xəbərindən sonra hücumların artacağına da hazır olmalıyıq. Xüsusilə təcrübə dini müstəvidə müdaxilələrin ola biləcəyini istisna etmir".

İsmayıl

## Cəmiyyətin inkişafında azad mətbuatın müstəsna rolu var

### Elçin Şıxlı: "İnsanlar fikirlərini azad ifadə etməyə yer tapmırlarsa, deməli o cəmiyyət abad deyil"



**Bütün dünyada Ümumdünya Mətbuat Azadlığı günü qeyd olunur.**

1993-cü ildən etibarən ayrı-ayrı ölkələrdə senzuranın yolverilməzliyi, medianın müstəqilliyi gündəmə gətirilir. Böyük mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin təbirincə desək, o millət və o cəmiyyət azad və xoşbəxtdir ki, onun mətbuatı azad və xoşbəxt olsun.

**"Ayna-Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı Ümumdünya Mətbuat Azadlığı günü barədə "Şərq"ə danışıb:** "Azad mətbuatın cəmiyyətin inkişafında müstəsna rolu var. İnsanlar fikirlərini azad ifadə etməyə yer tapmırlarsa, deməli, o cəmiyyət abad deyil. Yox, əksinə, insanlar fikirlərini istədikləri kimi ifadə etməyə yer tapırlarsa, deməli, media azaddır. Və əslində medianın də rolu elə bundan ibarətdir".

Kənan

## Eldar Həsənovun həbs müddəti daha 3 ay uzadıldı



**Bu gün Binəqədi Rayon Məhkəməsində Azərbaycanın Serbiya, Monteneqro, Bosniya və Herseqovinadakı sabiq səfiri, hazırda həbsdə olan Eldar Həsənov barəsində seçilən həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanının verdiyi vəsatətə baxılıb.**

Hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə təqdimat təmin edilib, Eldar Həsənovun barəsində olan həbs-qətimkan tədbirinin müddəti daha 3 ay uzadılıb.

# Elman Rüstəmovun heç vecinə də deyil

## Məntiqsiz qərarlar qara bazarı dirçəldir




**Mərkəzi Banka dair mütəmadi gündəmə gətirilən problemlərdən biri də qurumun Azərbaycana xarici sərmayə qoyuluşuna maneçilik törətməsi ilə bağlıdır. İqtisadçı-alim Qubad İbadoğlu da ötən gün bu məsələyə münasibət bildirib.**

Ekspert vurğulayıb ki, ötən ilin əvvəlindən başlayaraq, hər bir Azərbaycan vətəndaşına şəxsiyyət vəsiqəsilə 20 min manat ekvivalentində (11 min 750 dollar) xarici valyuta satışı həyata keçirilirdi. Yəni 12 ay ərzində bu limiti keçənlərə banklar tərəfindən xarici valyuta satılmırdı. Onlara tezliklə balansın sıfırlanacağı və yenidən satışın bərpa ediləcəyi bildirilmişdi. Lakin 12 aylıq müddət başa çatsa da, limiti aşan vətəndaşlara bildirilir ki, balans Mərkəzi Bank tərəfindən sıfırlanmayıb, bu səbəbdən də onlara dollar satılmır. İqtisadçının sözlərinə görə, belə yanaşma əhali arasında dollar ajiotajı yaradır, qara valyuta bazarları yenidən aktivləşir, həm də devalvasiya söhbətləri çoxalır. Q.İbadoğlunun fikrincə, Mərkəzi Bank bununla əhalinin dollara tələbatını süni surətdə aşağı salır.

**İqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında deyib ki, Mərkəzi Bank tamamilə qanunsuz, məntiqsiz qaydada ölkədə dollar satışına mənasız qadağalar, məhdudiyyətlər qoyub. Ekspert bildirib ki, məntiqsiz qadağalar bir yana, Bank bir il müddətindən sonra vətəndaşların limitini də sıfırlamaq istəmir:** "Vətəndaşlar bundan əziyyət çəkir, Elman Rüstəmovun isə heç vecinə deyil. Belə qadağalar normal bazar iqtisadiyyatı olan ölkələrdə mümkün deyil. Bu cür addımlar milli valyutanı devalvasiyaya uğradır, investorlar ölkədən qaçır. Əgər mənim 11 min 700 dollarlıq limitim dolubsa, qardaşımın, bacımın, qonşumun, dost-tanışımın şəxsiyyət vəsiqəsini götürüb gedib dollar alacam. Bu da mümkün olmasa, qara bazardan alacam. Yəni bu tipli məntiqsiz qərarlar zatən qara bazarı dirçəldir. Belə qərarlarla manatın məzənnəsini saxlamaq cəhdi tam fiaskodur. Əksinə, məzənnənin daha sərt oynamasına səbəb olacaq. Dünyada iki məsələnin - pulun və ideyanın qarşısını inzibati yolla almaq mümkün deyil".

"Belə qadağalar normal bazar iqtisadiyyatı olan ölkələrdə mümkün deyil. Bu cür addımlar milli valyutanı devalvasiyaya uğradır, investorlar ölkədən qaçır"

**İsmayıl Qocayev**

## Yoluxma sayı 500-dən aşağı düşdü

### Son sutkada 19 nəfər koronavirusdan vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 418 yeni yoluxma faktı qeydə alınıb, 1095 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 19 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 321 798 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 294 784 nəfər müalicə olunaraq sağalıb, 4 580 nəfər vəfat edib, aktiv xəstə sayı 22 434 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 180, ötən müddət ərzində isə ümumilikdə 3 267 835 test aparılıb.*

## Lənkəranda 20 yaşlı qadın doğuşdan sonra dünyasını dəyişib

**Lənkəranda ana ölümü baş verib. APA-nın cənub bürosunun verdiyi məlumata görə, Lerik sakini, 2001-ci il təvəllüdlü Rəqsanə Səmid qızı Xangəldiyeva doğuşdan sonra ölüb.**

Mərhum qadın övladını dünyaya gətirdikdən sonra həkimlərin səylərinə baxmayaraq, dünyasını dəyişib. Körpənin həyatını isə xilas etmək mümkün olub.

*Faktla bağlı araşdırma aparılır.*

# "Azad müəllim mərdimazar olmayıb"



## Əhməd Qəşəmoğlu: "Belə şəxslərin arxasınca danışmaq məsuliyyətsizlik, cəmiyyətimizdəki xoş olmayan xəstəliyin əlamətidir"

**Bu günlərdə 56 yaşında vəfat edən Gənclər və idman naziri Azad Rəhimovun ölümündən öncəki son fotosu üzə çıxıb. Foto mərhum nazirin müalicə aldığı dövrə təsadüf edir. Müxtəlif sosial şəbəkələrdə mərhum nazir haqqında xoşagəlməz ifadələr səsləndirilir.**

Dünyasını dəyişən biri haqqında qeyri-etik ifadələrin işlədilməsi təbii ki, təəssüf doğurur. Maraqlıdır ki, məmurlara qarşı sərt reaksiyalar onların ölümündən sonra da davam edir. Bunu "Zamanında rüşvət və korrupsiyaya yol verməzdi" deyib, qınağa haqq qazandıranlar da var, onu pisləyənlər də.

**Mərhum nazirlə yaxından tanış olduğunu deyən sosioloq-alim Əhməd Qəşəmoğlu "Şərq"ə bildirib ki, A.Rəhimov neqativ ifadələrə layiq nazir olmayıb:** "Bir zamanlar Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin Elmi Mərkəzində işləyirdim. Mərkəzin rəhbəri idim. O vaxtlar Azad müəllim gənc idi, yanıma da gəlib-gedirdi.

O, pis adam deyildi. Yəni arxasınca danışılası və mərdimazar biri olmayıb. Belə şəxslərin arxasınca danışmaq məsuliyyətsizlik, cəmiyyətimizdəki xoş olmayan xəstəliyin əlamətidir.

Bu xəstəliyin də adı odur ki, insanlar necə gəldi danışmağı xoşlayırlar. Belə davranış vətəndaşlarımız üçün yaxşı göstərici deyil. Bir toplumda ki, bu cür vərdiş yaranıb, deməli, həmin cəmiyyətin mənfi göstəricisi var.

İnsanlar daha ciddi məsələlərə diqqət ayırmaq yerinə özlərini çoxbilmiş, qayğıkeş kimi göstərib, onun-bunun arxasınca danışmağı xoşlayırlar.

Dünyasını dəyişən biri haqqında xoşagəlməz ifadələr səsləndirmək etik deyil.

Bir var ki, bu insan çox mənfur işlər görə, o zaman mənfi fikir səsləndirən insanları başa düşmək olar. Çünki insanlara qarşı pislik edən məmur haqqında kimlərinsə yana-yana danışmağını müəyyən mənada anlamaq olar.

Lakin rəhmətə getmiş biri neqativ işlərə əl atmayıbsa, onun haqqında mənfi danışmaq yaxşı əlamət deyil".

**Yeganə Bayramova**



# Füzuli hava limanı 1 saata 200 sərnişinə xidmət edəcək

## *Şuşaya getmək istəyən turistlər də yolunu burdan salacaq*

*"Füzuli hava limanı işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin gəlməsi baxımından olduqca faydalıdır və yeni imkanlar yaradacaq".*

Bunu Milli Məclisin deputatı Vüqar Bayramov deyib. O bildirib ki, Füzuli hava limanının əsas infrastrukturunun bu il sentyabrın 5-dək hazır olması gözlənilir:

"Bu ilin payızında hava limanı ilk uçuşları həyata keçirə biləcək. Hazırda limanın enmə zolağının və yardımçı tikililərin inşaatına 500-ə yaxın işçi cəlb olunub. Füzuli hava limanı hansı texniki parametrlərə malik olacaq? Hava limanı uzunluğu 3 km, eni 60 metr olan uçuş enmə zolağı, 60 min kv metrlik 8 hava gəmisinin dayanması üçün sahə, sərnişinlərə xidmət göstərəcək terminal, hava gəmilərinin idarə edilməsi üçün qüllə, transformator yarımstansiyası, qazanxana, su anbarı və başqa köməkçi tikililərdən ibarət olacaq. Hava limanı 1 saatda 200 sərnişinə xidmət edə biləcək. Nəzərə alsaq ki, Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur. Füzulidə hava limanının tikilməsi imkan verəcək ki, həmin turistlər daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa işğaldan azad olunan ərazilərimizə səfər edə bilsinlər. Bu amil işğaldan azad edilmiş ərazilərimizə, eləcə də Füzuli rayonuna gələcək turistlərin sayına müsbət təsir göstərəcək və daha çox turistin ölkəmizə gəlməsinə imkan yaradacaq".

**Deputat hesab edir ki, hava limanı yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir:** "İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılacaq hava limanı həm də həmin ərazilərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir. Hava limanının inşası və yaxın gələcəkdə istifadəyə verilməsi yeni iş yerlərinin yaradılmasına da xidmət edəcək. Bu, xüsusən işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşan vətəndaşlarımızın məşğulluğunun təmin olunması baxımından da vacibdir".

**Aynurə Pənahqızı**







# Gözəl Araz, gözün aydın!

## "Dəmir yumruq"la alınan torpaqlarımıza dəmir yollar çəkirik

*"Şərq"in əməkdaşı Cəbrayıldan yazır*

Cəmi 6 ay əvvəl təsəvvür etməyin mümkünsüz olduğu, üstəgəl, yuxuların da qısa zamana vəd vermədiyi bir səfərə başladıq. Yolumuz sərhədədir. Elə bir sərhəd ki, 200 il əvvəl Arazı ayıranda yarandı. Sərhədin o tayına uzun illər həsrətlə baxdıq.









## Arazın ətrafında ümidlər cücərir, çayın üzərində tikilən elektrik stansiyası regiona işıq saçacaq

Ötən əsrin sonlarında isə Ermənistanın torpaqlarımızı işğal etməsi ilə sərhədlərimizin bir hissəsinə baxmaq üçün əksinə, o taya getmək lazım gəldi. İndi isə artıq sevinən Arazı, 30 ilə yaxın düşmən nəzarətində qalmış torpaqları görməyə gedirdik. Məqsədimiz isə təkcə görmək yox, həm də öyrənmək idi. Çünki hazırda minalardan təmizlənən, yenidən qurulmasına başlanılan torpaqlarımıza Araz çayı təkcə suyu ilə bərəkət qatmayacaq, həm də o taylı, bu taylı böyük bir regiona işıq saçacaq, özü də sözün həqiqi mənasında. Bəli, gedirik Arazın üzərində tikilməkdə olan su elektrik stansiyasında aparılan işlərlə tanış olmağa. Və əlbəttə ki, oxucunu da tanış etməyə.

**Şəhid qanı ilə yoğrulan torpaqlarda lalələr...**

44 günlük müharibənin elə ilk günündən Füzuli şəhərinin azad olunması xəbərini gözləyirdik. Aldığımız xəbərlərdə isə Füzulinin və Cəbrayılın kəndlərinin adları açıqlanırdı. Cəbhə xətti Füzuli olsa da, oktyabrın 4-də ilk böyük müjdəni Cəbrayılın azadlığı ilə almışdıq. Baxmayaraq ki, Cəbrayıla gedən yol Füzulidən keçir, Cəbrayıl Füzulidən əvvəl azadlığa qovuşmuşdu. O zaman hələ bilmirdik ki, bütün bunlar hərbi taktikadır, döyüş reallıqlarıdır. Füzuli rayonunun böyük hissəsi işğalda idi, yaralıydı, amma məğrur idi. Birinci Qarabağ müharibəsi dövründə işğaldan azad olunmuş Horadiz elə gözəl bərpa olunmuşdu, burada həyat elə qaynayırdı ki, məhz Horadizi görüb, digər yaşayış məntəqələrimizin də tezliklə azad ediləcəyinə daha çox inanmaq olardı. Bundan öncə dəfələrlə Horadiz qəsəbəsində səfərdə olmuşdum və oradan irəli addım ata bilməmək beynimdə cənub-qərb sərhədlərimizin yekunlaşdığını heç də assosiasiya etməmişdi. Axı bizim Horadizdən qərbdə də torpaqlarımız var, özü də cənnətməkan torpaqlarımız. Oradakı ağacları, gül-çiçəyi meh tozlandırır, şeh suvarır...

Elə ki, Horadizə çatdıq, burada heç vaxt görmədiyim, məzmunu ilə insanın qəlbinin dərinliklərinə işləyən bir tablo diqqətimi çəkdi. Tabloda Cəbrayıla, Laçına, Kəlbəcərə və digər rayon və şəhərlərimizə aparan yolların məsafəsi qeyd olunub. Ən yaxın məntəqə Cəbrayıldır. Elə biz də, ən yaxın məntəqəyə gedirik, Cəbrayıla. Unutmayaq ki, düşmənimiz dünyanın ən hiyləgəri, ən şərəfsizidi. İldə bir neçə dəfə məhsul verə bilən torpaqlara belə demək mümkündürsə, mina "səpiblər". İndi bu qədər ərazini minalardan addım-addım, qarış-qarış təmizləmək vaxt aparır, ona görə də bizim olan və artıq bizim nəzarətimizə keçmiş torpaqlara hələ də hamı asanlıqla gedə bilmir.

Füzuli rayonunun Horadiz qəsəbəsinə çatdıq, elə burada sənədlərimizin yoxlanılmasına başlanıldı. Tapşırıqları da aldıq: "məlum yollardan bir addım da kənara addım atmaq olmaz".

Sənədlərimiz yoxlanandan cəmi bir neçə dəqiqə sonra Cəbrayıla yola düşdük. Qısa yol bəs edir ki, üzərində üzüm rəmzi və "Cəbrayıl" yazısı olan lövhəyə çataq. Amma o qədər qəribə hisslərimiz var ki, elə bil dünyanın ən uzaq səfərinə çıxmışıq. Haqsız da deyilik, bu bir addımı atmaq, oralara getmək reallaşması çətin görünən arzulardan idi axı...

**Dağılmış, qapısız, pəncərəsiz evlər görünür**

Bərəkətli Cəbrayıl torpağı yamyaşıldır. Bu sonsuz yaşıllıqlar içində təəssüf ki, dağılmış, qapısız, pəncərəsiz evlər görünür. Bir də heyif ki, o böyük Cəbrayılı kəndbəkənd tanıya bilmədik. Ona görə yox ki, Cəbrayılda az qaldıq, əksinə, bəzən yolu azırdıq, az qala Cəbrayılı dövrə vururduq. Amma bu cənnət diyarı vandallar elə günə qoyub ki, təbiətin bəxş etdiyi gözəllikdən savayı heç nə qalmayıb. Hər yer dağılıb. Azad olunduqca adını əzbərlədiyimiz kəndləri tanıya bilmirdik, ayırd edə bilmədik. Yam-yaşıl sahələr arasında baş qaldıran lalələr, xarabalıqlara çevrilən evlər, məhv edilmiş erməni texnikası və postları... Cəbrayılın ümumi mənzərəsidir.

Gəldik çatdıq, Araz çayına. Gur və təmiz sulu Arazın ən möhtəşəm yerinə. Məhz olduğumuz bu yeri Arazın ən möhtəşəm yeri adlandırmağımız üçün bir neçə səbəb var. Ona görə ki, burda - Arazın üzərində əsrlərə şahidlik etmiş möhtəşəm Xudafərin körpüsü var - ayrılan qardaşları birləşdirən tarixi yol, tarixi körpü - Xudafərin. İki Xudafərin körpüsündən biri aşınıb, dağılmış vəziyyətdədir, digərinə isə şükürlər olsun ki, ciddi xətər toxunmayıb. Bu yerlər gözəldir, yaxın zamanda daha da gözəlləşəcək. Çünki Araz boyunca buralardan dəmir yolu keçəcək. Bu haqda sonra ətraflı bəhs edəcəyik, indi qayıdaq Xudafərinə. Bu dəfə körpü Xudafərinə yox, "körpə" Xudafərinə. Hansı ki, 2 il sonra böyüyüb, böyük Xudafərin Su elektrik stansiyası olacaq. Hidroqovşaq artıq hazırdır, Arazın qarşısını kəsib, coşduran, coşdurduqca suyunun gücündən elektrik alacaq bənd tikilib, biz də elə burda - bəndin üzərində dayandıq. Müşahidə etdik... İşlər zərgər dəqiqliyi ilə görülür. Azərbaycanla İranın sərhədlərini müəyyənləşdirən Arazın üzərində tikilən bəndin qarşısında asfalt üzərində ağ boya ilə çəkilmiş xətt var. Öyrəndik ki, bu xətt həm də sərhədi ehtiva edir. Cəmi bir addım Azərbaycandan İrana, İrandan Azərbaycana keçməyə bəs edir. Bu körpü bəndin üzərindən Araz da, Xudafərin də bir başqa gözəllikdə görünür.

Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" SES-lərinin inşa edilməsi layihəsi hələ sovet vaxtı Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu tərəfindən hazırlanıb və layihə ilə bağlı o zaman ölkələr arasında sənədlər imzalanıbmış. Adıçəkilən layihənin icrası ilə bağlı aparılan uzunmüddətli müzakirələrin nəticəsi olaraq stansiyaların tikintisi ilə bağlı "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında Saziş" 23 fevral 2016-cı il tarixdə imzalanıb. Bu Saziş 2016-cı il 14 iyun tarixli 272-VQ nömrəli Qanunla Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilib. "Xudafərin" su anbarının tutumu 1,612 milyard kubmetr, ölü həcmi isə 117 milyon kubmetr təşkil edir. Su anbarında işlər yekunlaşdırılıb. "Qız Qalası" hidroqovşağının su tutumu 56,75 milyon kubmetr, ölü həcmi isə 7,5 milyon kubmetr təşkil edir. Su anbarında işlər 95 faiz tamamlanıb.

**Dəmir yumruqla bərpa olunan dəmir yolları**

Möhtəşəm hisslərlə geri qayıdırıq. Əlbəttə ki, qəlbimizdə bu qələbəni bizə nəsib edənYaradana şükürlər, bu torpaqları bizlərə qaytaran Vətən övladlarına təşəkkür edərək. Əmin oluruq ki, görülən işlər çoxdur, görüləcək işlərsə daha çox. Məsələn, torpaqlarımız işğal edilməmişdən əvvəl fəaliyyətdə olan, lakin sonralar kəsilib çıxarılmış, dağıdılmış dəmir yollarımız artıq bərpa olunur. Horadizdə çəkilmiş dəmir yolları, digər ərazilər üçün başlanğıc rolunu oynayır. Horadiz-Ağbənd dəmir yolunda da işlər başlayır. "Dəmir yumruq"la alınan torpaqlarımıza dəmir yollar çəkməyə başlayırıq, Zəngilandan Zəngəzura, Zəngəzurdan Naxçıvana bizi aparacaq dəmir yolları regionun parlaq gələcəyini dəmir kimi möhkəm edəcək.

**Elvin Basqallı**

# SSRİ-dən qalan ocaq...

## Orta Asiya münaqişə ilə silkələnir

Xəbər verdiyimiz kimi aprelin 29-da Qırğızıstan-Tacikistan səhədində suya nəzarət səbəbindən baş verən gərginlik silahlı qarşıdurmaya səbəb olmuşdu. Qarşıdurmalar nəticəsində hər iki tərəfdən ölən və yaralananlar var idi. Son məlumatlara əsasən, insidentlərdə həyatını itirənlərin sayı 50 nəfərə çatıb, yaralananların sayı isə 180 nəfərə yüksəlib.

Həyatını itirənlərdən 7-si hərbçi, qalanları isə mülki şəxslərdir. İki ölkənin Xarici İşlər Nazirlikləri arasında baş tutan görüşlər nəticəsində tərəflərin əvvəlki mövqelərinə geri çəkilməsi, problemin müzakirə yolu ilə həll edilməsi və atəşkəsin təmin olunması məsələsində razılıq əldə olunub. Ekspertlər vurğulayıb ki, münaqişəyə səbəb olan Batken bölgəsində yaz və yay aylarında suya tələbat kəskin şəkildə artır və bu, qonşular arasında vaxtaşırı baş verən mübahisələrə səbəb olur. Gərginliyi artıran əsas amillərdən biri də sərhəd mübahisələridir. Qırğızıstan və Tacikistan arasındakı dövlət sərhəd xəttinin ümumi uzunluğu 980 kilometrdir ki, bunun da təxminən yarısı demarkasiya olunmamış qalır.

Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu hər iki ölkənin xarici işlər nazirləri ilə telefon əlaqəsi saxlayıb. Bu barədə Çavuşoğlu tvitter səhifəsində məlumat verib. Nazir bildirib ki, Ankara iki qardaş ölkə arasında problemin sülh yolu ilə həll olunmasını istəyir: "Atəşkəs haqqında razılaşmadan məmnunuq. Ehtiyac olarsa, kömək göstərməyə hazırıq".

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da Qırğızıstan-Tacikistan sərhədindəki münaqişə ilə əlaqədar bəyanat yayıb. Baş katib Bağdad Amreyev bildirib ki, hər iki tərəfdən insan tələfatına səbəb olan gərginlik dərin narahatlıq doğurur: "Müqəddəs Ramazan ayında birləşmək və müxtəlifliklərimizi kənara qoymaq üçün əlimizdən gələni etməliyik. Mövcud problemlərin yalnız iki ölkə arasında mehriban qonşuluq münasibətləri ruhuna uyğun diplomatik danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilməli olduğuna inanırıq. Xüsusilə Qırğızıstan tərəfinin barışın bərpasına verdiyi töhfəni qeyd edirik. Türk Şurası təşkilatın qurucu üzvü olan qardaş Qırğızıstanla mövzu ətrafında sıx təmas saxlamağa davam edəcək".



"Qırğızıstanla Tacikistan arasında münaqişənin həlli də etibarlı xəritədən keçir"

**Tərəflərin qarşıdurmasını "Şərq"ə təhlil edən politoloq Sədrəddin Soltan deyib ki, Tacikistanla Qırğızıstan arasında münaqişə keçmiş SSRİ dövründən başlayıb. Yaxud əsası həmin dövrdə qoyulub. Analitikin sözlərinə görə, şər imperiyası dağılandan sonra başqa bölgələrdə olduğu kimi Türküstanda da taciklər ərazi iddiaları ilə çıxış etməyə başlayıb:** "Tacikistanla Qırğızıstan arasında sərhədin uzunluğu 970 km-dir. İndiyədək onun 507 km-i demarkasiya olunub. 70-dən artıq mübahisəli məntəqə var. Tacikistan iki dövlət arasında sərhədin 1924-1939-cu illərin, Qırğızıstan isə sərhədlərin 1958-1959-cu illərin xəritəsinə əsasən müəyyənləşməsini istəyir. Mütəxəssislər 21-ci əsrdə dünyada su və mənbələri uğrunda müharibələrin baş verəcəyini proqnozlaşdırırlar. Bu baxımdan Özbəkistan, Tacikistan və Qırğızıstan arasında konflikt həmin qarşıdurmanın xəbərçisi də sayıla bilər. Nəzərə almaq lazımdır ki, Aral gölü də bölgədə su qıtlığı, yaxud israfı səbəbindən quruyub. Bəs su problemi geosiyasi mahiyyət daşıyırmı? Orta Asiyadakı türk ölkələrinin inteqrasiyasının qarşısını almaq, yaxud ona mane olmaq üçün Tacikistanla münaqişədən istifadə oluna bilər. Məsələn, Cənubi Qafqaz, yaxud Qafqaz birliyinin alınmaması üçün Ermənistanın pozuculuq fəaliyyətini xatırlamaq yerinə düşər. NATO qüvvələri Əfqanıstandan çıxmağa başlayıb. Bu hadisə perspektivdə regionda münaqişə ocaqlarının yaranmasına şərait yarada bilər. Nəzərə almaq lazımdır ki, Tacikistanda 1992-1997-ci illərdə vətəndaş müharibəsi olub. Bu ölkə Əfqanıstandakı silahlılar üçün baza sayılıb. Odur ki, regionun yenidən qarışması üçün bu dəfə Qırğızıstan-Tacikistan və Özbəkistan-Tacikistan potensial münaqişəsi başlaya bilər".

*S.Soltan problemin hansı şəkildə çözüləcəyi ilə bağlı fikirlərini də söyləyib:* "Qırğızıstan, Özbəkistan və Tacikistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvləridir: "Bu birliyin üzvləri arasında yeni münaqişə ocağının yaranması onun perspektivini şübhə altına alır. Üzvləri bir-biri ilə konfliktdə olan hərbi bloka yeni üzvlərin qəbulu perspektivsiz sayıla bilər. KTMT-nin baş katibi Stanislav Zas bildirib ki, Qırğızıstanla Tacikistan sərhədindəki münaqişə qısa müddətə dinc yolla həll edilməlidir. Deməli, hərbi blokun belə vəziyyətlərdən çıxmaq üçün planı yoxdur. Bu da təşkilatın belə münaqişələri həll etmək gücündə olmadığını söyləməyə əsas verir. İmperiyalar qocalır və sonra çökür. Ancaq onların qoyduğu izlər qalır. Türkiyənin mərhum baş naziri Bülent Ecevit Fələstin-İsrail arasındakı ərazi məsələsi ilə bağlı deyirdi ki, "O torpaqlar Osmanlı dövlətinin olub. Bizdə kimin hansı torpağa sahib olduğunun xəritəsi var. Əgər istəsələr, biz həmin xəritəni tərəflərə təqdim edə bilərik". Yəni Qırğızıstanla Tacikistan arasında münaqişənin həlli də etibarlı xəritədən keçir. Həmin xəritənin ortaya qoyulması, ona əsasən danışıqların aparılması və münaqişənin həlli gələcəkdə mümkün insan itkilərindən, qaçqınlardan yayınmağa imkan verər. Ancaq çətin ki, bu addım atılsın. Görünür, Orta Asiyanı bu kimi münaqişələrlə silkələmək nəzərdə tutulur".

**İsmayıl Qocayev**



## Türkiyəyə gələnlər 14 gün karantin altında saxlanacaq

**Hindistandan və ya son 10 gün içində bu ölkədə olub Türkiyəyə gələnlər, bələdiyyələr tərəfindən təyin olunan yerlərdə 14 gün karantin altında saxlanılır.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, karantin müddətinin sonunda edilən PCR testinin mənfi çıxması halında bu kəslərin karantini sonlandırılır.

Səhiyyə Nazirliyi səlahiyyətliləri, Hindistandan ölkələrinə dönəcək xaricilərin COVİD-19 riski səbəbiylə karantində qalmamaq üçün Türkiyəyə gələrək tətil etdikləri iddialarını yalanlayıb.

Ayrıca Türkiyəyə daxil olmaq istəyənlərin son 72 saat içində edilmiş PCR testlərinin mənfi olması lazımdır.

# Fransanı xaos bürüyür

## "Bu cür hadisələrin artması onu göstərir ki, bir sıra ölkələrdə dərin sosial problemlərlə yanaşı, eyni zamanda səlib yürüşü təfəkkürü var"

Fransanın paytaxtı Parisdə, Lill, Nant və Liyonda keçirilən 1 May nümayişləri zamanı radikal qüvvələrlə polis arasında toqquşma baş verib. Polislə qarşıdurma Parisin Xal meydanında daha qabarıq şəkildə yaşanıb. Qara geyimli bir qrup etirazçı şəhərdə zibil qutularını yandırmağa, ticarət və digər obyektlərə müxtəlif dərəcədə zərər vuraraq polisə müxtəlif əşyalar atıblar.

Şəhər Polis İdarəsi meydanda olanları təcili yardım xidmətinə yaraların çıxarılması ilə bağlı müdaxilə etməməyə çağırıb. Bəzi yerlərdə etirazçılar yanğınsöndürənlərə yandırdıqları tonqallara yaxınlaşmağa imkan verməyiblər. Polis radikallara qarşı gözyaşardıcı qaz bombasından və su şırnaqlarından istifadə etməyə məcbur olub.

Liyonda nümayişlərin dağıdılması zamanı 27 polis və jandarma zabiti yaralanıb, azı 5 nəfər nəzarətə alınıb. Son məlumatlara görə, Parisdə 34 nəfər etirazçı saxlanılıb.

Qeyd edək ki, Emmanuel Makron prezident seçildikdən sonra Fransada belə toqquşmalara tez-tez rast gəlinir. Maraqlıdır, bu qarşıdurma "sarı jiletlilər"in üsyanı kimi geniş vüsət ala bilərmi?

**Millət vəkili Asim Mollazadə "Şərq"ə bildirib ki, Fransada həm radikal sol, həm də radikal sağ qüvvələri çox fəallaşıblar:** "Onların bir neçə istiqamətdə ölkəni xaosa sürükləmək və Fransanın müxtəlif şəhərlərində sabitliyi pozmaq cəhdlərini dəfələrlə izləmişik. Radikal sağ qüvvələri Fransada antiislamla bağlı bir neçə xoşagəlməz hadisələr törədib, məscidləri yandırıb, qaradərili insanlara hücumlar ediblər. Tək Fransa deyil, Avropanın digər ölkələrində də belə prosesləri müşahidə edirik.




Sadəcə, Fransada belə hallar kəskin forma alıb. Almaniya və Belçikada da analoji hallar yaşanır. Bu cür hadisələrin artması onu göstərir ki, bir sıra ölkələrdə dərin sosial problemlərlə yanaşı, eyni zamanda səlib yürüşü təfəkkürü var.

Hansısa dini və etnik cəhətdən fərqli olan insanlara qarşı dözülməz yanaşmalar Avropanın bir sıra ölkəsində, əsasən də Fransada öz əksini tapıb.

Bu da onu göstərir ki, bir çox halda Avropada bəyan olunmuş dəyərlərlə reallıq arasında çox ciddi uçurum var".

**Yeganə Bayramova**

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Dövlət öz vətəndaşlarını bağrına basır

*Şuşada bütün dinlərin nümayəndələri ibadət edə biləcək*



Şuşa bərpa olunur. Tam məntiqli, qanunauyğun, gözlənilən və müşahidə edəcəyimizə, şahid olacağımıza inandığımız həqiqətdir. Azərbaycan xalqı işğal faktı ilə heç vaxt barışmadı. Doğma yurda qayıdacağına varlığı qədər inandı. Ümid yox, inam bəslədi. Ümidlər qırıla bilir, reallaşmaya bilir. İnam isə insana güc verir, təpər verir, gələcəyə aparır. Azərbaycan xalqı da Vətən sevgisindən doğan inamına sarıldı 30 ilə yaxın bir müddətdə. Böyük Qələbə gününün, Böyük Qayıdış gününə doğru addımladı.

Əlbəttə ki, güclü, gündən-günə inkişaf edən, böyüyən, ucalan, dünya kürsülərindən səsi daha ucadan, qətiyyətlə çıxan dövlətlə - dövlətin başçısı, indi qürurla müzəffər Ali Baş Komandan dediyimiz cənab Prezident İlham Əliyevin dövlətçiliyə, xalqa, milli və vətəndaş maraqlarına söykənən siyasəti ilə. Xalq qələbəyə inanırdı, qayıdışa inanırdı, lakin bunun nə vaxt baş verəcəyini təxmin etmirdi. Cənab Prezident isə 44 günlük Vətən müharibəsi dövründə yerli və xarici mediaya verdiyi açıqlamalarda ”Mən nəyi nə zaman etməyi bilirəm, Prezident seçiləndə xalq qarşısında verdiyim sözlərə sadiqəm”, deyirdi. Və xalq da buna 44 günlük müharibə dönəmində və mənfur düşmən üzərində Qələbəmiz təsdiqləndikdə bir daha əmin oldu.

### Şuşa tək azərbaycanlıların deyil, bütün xalqındır

İşğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işləri aparılır. Prezident İlham Əliyevin göstərişi, birbaşa nəzarəti, diqqəti və qayğıkeşliyi altında aparılan quruculuq işlərinin bütün region üçün geniş imkanlar açdığı, iqtisadiyyatın inkişafına böyük töhfə verəcəyi, eyni zamanda bölgə əhalisinin sosial-iqtisadi durumunun yaxşılaşmasına xidmət edəcəyi birmənalıdır. Cənab Prezident çıxışlarında dəfələrlə bu məsələ barədə danışıb və işğaldan azad olunmuş ərazilərin qısa bir zamanda dirçəldilməsinin, 30 ildir doğma yurd-yuvasından didərgin salınmış vətəndaşlarımızın el-obalarına mümkün qədər tez qayıdışının dövlətimiz üçün əsas məsələ olduğunu vurğulayıb. Və bu işə cavabdeh olan şəxslərə ciddi tapşırıqlar verib. Lakin görürük ki, cənab Prezident də, ölkənin birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da icra olunan işlərə birbaşa nəzarət etməyi gərgin iş qrafiklərinə daxil edirlər. Cənab Prezident və ailə üzvləri işğaldan azad olunmuş ərazilərə, şəhər və kəndlərə səyahətlər edir, görülən işlərlə maraqlanır, yenə tapşırıqlarını verirlər. Şuşa şəhəri isə xüsusi mahiyyət daşıyır. Cənab Prezident Vətən müharibəsi günlərində xarici ölkə jurnalistinin ”Dağlıq Qarabağ sizin üçün niyə bu qədər önəmlidir” sualına tutarlı və xalqımızın ürəyinə su səpən bir cavab vermişdi: ”Elzas və Lotaringiya sizin üçün nədirsə, Dağlıq Qarabağ da bizim üçün odur. Qarabağ Azərbaycanın milli qürur mənbəyidir”, demişdi. Şuşa azad ediləndə isə cənab Prezident ulu öndər Heydər Əliyevin vəsiyyətinə əməl etdiyini qürurla söylədi və ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!” dedi. İndi xalqımız Şuşanın dirçəldilməsinə şahiddir. Şuşa Prezident sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. Bununla bağlı Prezident İlham Əliyev çıxışında demişdi ki, ”Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi. Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik”. Əlbəttə, Azərbaycan deyiləndə yalnız Azərbaycan türkləri nəzərdə tutulmur. Vətənimizdə yaşayan, Azərbaycanı Vətəni hesab edən, onun inkişafına xidmət edən, uğrunda döyüşən, şəhid olan bütün digər xalqların, millətlərin, etnosların nümayəndələri nəzərdə tutulur. Bu gün Şuşada aparılan bərpa, quruculuq işlərinin gedişində ”Qazançı” kilsəsinin bərpasının ön plana keçməsi Azərbaycan dövlətinin bu ölkədə yaşayan bütün xalqları öz vətəndaşı olaraq qəbul etdiyinin, hər birinə hörmətlə yanaşdığının bariz nümunəsidir. Şuşanın Gövhər Ağa Məscidi ilə yanaşı Qazançı kilsəsinin də təmir edilməsi, vəhşi ermənilərin xaraba qoyduğu, dağıtdığı məbədin yenidən bərpası Şuşanın bütün xalqın sərvəti, qürur mənbəyi, istisnasız hamımızın şəhəri olduğuna sübutdur.

### Şuşada bütün dinlərin nümayəndələri ibadət edə biləcək

Azərbaycan dövləti Şuşadakı bütün tarixi, milli və dini abidələri təmir etməklə, onlara ikinci ömürlərini yaşatmaqla həm də dünyaya mesaj verir. Yalan, böhtançı erməni əks-təbliğatının iç üzünü açır. Xatırladaq ki, 2020-ci ilin noyabrında Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini Azad Cəfərli bildirmişdi ki, Ermənistan hazırda ölkəmizə qarşı beynəlxalq miqyasda çirkin kampaniya aparır. Bu çirkin kampaniyanın tərkib hissəsindən biri də Şuşa şəhərində yerləşən ”Qazançılar kilsəsi”nin guya Azərbaycan Silahlı Qüvvələrinin raket zərbəsi nəticəsində zərər görməsidir. Birincisi, ”Qazançılar” erməni kilsəsi deyil, onun tarixi barədə kifayət qədər elmi araşdırmalar var. Kilsənin dağılmasına gəlincə, A.Cəfərli qeyd etmişdi ki, Şuşa şəhəri Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal olunana qədər ”Qazançılar kilsəsi” Azərbaycan dövləti tərəfindən layiqincə qorunub. 1984-1985-ci illərdə abidədə bərpa işləri aparılıb. Lakin Şuşa şəhəri ermənilər tərəfindən işğal edildikdən sonra kilsə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd və müvafiq beynəlxalq konvensiyaların tələbləri pozulmaqla 3 dəfə ”təmir-bərpa” prosesindən keçib. İstər aparılmış qanunsuz bərpa işləri, istərsə də münaqişə zamanı Azərbaycan mədəni irsinə aid abidəyə olunan müdaxilələr Ermənistan Respublikası tərəfindən törədilən vandalizm aktlarının bir nümunəsidir və işğalçı dövlətə münasibətdə müvafiq öhdəlik yaradır. Azərbaycan dövlətinin, şəxsən cənab Prezidentin dini və tarixi abidələrin bərpasına kimə, hansı xalqa məxsusluğuna fərq qoymadan xüsusi diqqət ayırması ölkəmizin dini ayrı-seçkilikdən uzaq olduğunu, bütün xalqların dini etiqadlarına, milli və dini dəyərlərinə hörmətlə yanaşdığını göstərir. Azərbaycan dövləti vətəndaşı olan hər bir kəsə ibadət üçün də, rahat, təminatlı yaşamaq üçün imkan yaradır. Heç kim, heç bir ölkə, hər hansı beynəlxalq təşkilat Azərbaycanda başqa dinlərin abidələri təhlükə altında olmasıyla bağlı ittiham edə bilməz. Yalnız bölgəyə bələd olmayanlar və erməni lobbisinin sifarişini yerinə yetirənlər belə bir cəfəng iddia ilə çıxış edə bilər. Azərbaycan xalqının, dövlətininsə belələrinə veriləcək cavabı var. Hər şey göz önündədir, aşkardadır. Dövlətin apardığı siyasət, təkcə işğaldan azad edilmiş ərazilərdə deyil, ümumən ölkədə aparılan işlər bunun əksini sübut edir. Cənab Prezident də çıxışlarında vurğulayıb ki, Azərbaycana iftira atmağa cəhd edənlər ermənilərin 30 il müddətində müsəlman abidələrini hansı vəziyyətə saldıqlarına baxsınlar. Ermənilər tarixi, dini abidələri, bütün evləri, yaşayış məskənlərini dağıdıb, meşələri qırıb, torpaqları yararsız hala salıb. Azərbaycan isə vətəndaşlarını qoruduğu, onlara sahib çıxdığı kimi, abidələrə də sahib çıxır, onları bərpa edir, qoruyur və vətəndaşlarının istifadəsinə verir. Şuşada və bütün Qarabağda da belə olacaq.

### ”Qazançı”nın bərpası dövlətimizin bütün vətəndaşlarını bağrına basdığını göstərir

*Prezident çıxışlarında qeyd edib ki, dini abidələrimiz qorunur və qorunacaq:* ”Mənim göstərişimlə bizim bütün əsas dini abidələrimiz təmir olunub. Bir çoxları yenidən tikilib, o cümlədən mənim göstərişimlə Heydər məscidi yenidən tikilib. Bizim digər məscidlərimiz əsaslı təmir edilib. Onların təmiri simasını qorumaq şərtilə aparılıb. Azərbaycan bu sahədə də dünyaya göstərir ki, nə qədər zəngin mədəni irsə malikdir. Artıq işğaldan azad olunmuş Xudavəng kilsəsi öz sahiblərinə, bizim udi qardaşlarımıza qaytarılıb. Baxmayaraq ki, ermənilər bunun həm adını dəyişdirdilər, həm də orada aparılan saxtakarlıq işləri nəticəsində onun görünüşünü dəyişdirdilər, onu erməniləşdirmək istədilər, amma buna nail ola bilmədilər. Bizim udi qardaşlarımız artıq Xudavəng kilsəsində öz ibadətlərini etmişlər. Qafqaz Albaniyasına aid olan bütün digər kilsələr, o cümlədən Nic qəsəbəsindəki kilsə. Heydər Əliyev Fondu tərəfindən təmir olunan bu kilsə müharibə zamanı açılıb və bizə qarşı əsassız ittihamlar irəli sürənlərə ən gözəl cavab məhz budur. Müharibə zamanı alban-xristian kilsəsinin təmirdən sonra açılışı olubdur. Rus-pravoslav kilsələri, sinaqoqlar, katolik kilsə, gürcü kilsələri, Bakıda yerləşən erməni kilsəsi - bütün bunlar dövlət tərəfindən qorunur. ...Bu gün Qarabağ bölgəsində yaşayan ermənilər də, əminəm, bunu artıq başa düşürlər ki, onlar ancaq Azərbaycan dövləti çərçivəsində normal yaşaya bilərlər”. Azərbaycan dövlətinin kimliyindən, hansı dinə, hansı etnik qrupa mənsubluğundan asılı olmayaraq bütün vətəndaşlarına eyni imkanlar yaratması hazırda işğaldan azad olunmuş ərazilərdə hazırda aparılan təmir-bərpa, abadlıq, quruculuq işlərinin gedişində də özünü göstərir. Əgər bu gün Füzulidə, Zəngilanda, Laçında beynəlxalq hava limanlarının tikintisi, su elektrik stansiyalarının inşasına başlanması, ”Ağıllı kənd” layihələrinin icrası təbii ki, vətəndaşların rifahına yönəlib. Qarabağda tikiləcək sənaye müəssisələri, fəaliyyətə başlayacaq zavodlar, fabriklər əhalinin sosial təminatının yaxşılaşmasına, gəlirlərinin artmasına xidmət edəcək. Cənab Prezidentin də dediyi kimi, Azərbaycan ərazisində yaşayan bütün xalqlar Azərbaycan vətəndaşlarıdır. Dövlətin həyata keçirdiyi hər hansı sosial yönümlü layihə də vətəndaş maraqlarına xidmət edir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Böyük Qayıdışa artıq start verilib

*Tural Gəncəliyev: "Bundan sonra əsas diqqətimizi Qarabağa qayıdış məsələlərinə yönəldəcəyik"*



Ötən il 44 gün davam edən Vətən müharibəsi çox çətin və şərəfli müharibə oldu. Həmin müharibə nəticəsində 30 ilə yaxın işğalda olan doğma torpaqlarımız azad edildi. Bununla da Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi sona çatdı. Belə olduğu təqdirdə, artıq Dağlıq Qarabağ kimi ayrıca bir ərazi vahidi də qalmadı.

Artıq bütöv bir Azərbaycan var. Məhz buna görə də 2006-cı ildə qeydiyyata alınmış "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi aprelin 30-da ictimaiyyətə müraciət edərək təşkilatın buraxıldığını elan etdi. İcmadan bildirildi ki, bundan sonra əsas fəaliyyətlərini tarixi və əzəli torpaqlarımıza böyük qayıdışın uğurla başa çatdırılmasına, Qarabağımızın dirçəldilməsinə yönəldəcəklər. Bu məqsədlə "Qarabağa dönüş" adlı ictimai birliyin yaradıldığı da elan olundu.

**Bu barədə ləğv olunmuş "Dağlıq Qarabağın Azərbaycanlı İcması" İctimai Birliyinin rəhbəri, millət vəkili Tural Gəncəliyev "Şərq"ə açıqlama verib. Milli Məclisin deputatı bildirib ki, icma uzun illər ərzində üzərinə düşən tarixi missiyanı layiqincə həyata keçirib:** "Bildiyiniz kimi, uzun illər ərzində mövcud olan və 2006-cı ildə qeydiyyata alınmış "Dağlıq Qarabağın Azərbaycanlı İcması" İctimai Birliyi Ermənistanın təcavüzkarlıqlarının ifşa edilməsi, ölkə daxilində və ölkə xaricində bunun dünya ictimaiyyətinə çatdırılması ilə bağlı fəaliyyət apardı. Bu fəaliyyətimiz Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində zəfərlə yekunlaşdı. Müharibə nəticəsində Ermənistan ordusu darmadağın edildi və regionda yeni reallıqlar yarandı. Artıq Dağlıq Qarabağ adlı ayrıca inzibati ərazi vahidi mövcud deyil. Azərbaycanlı və erməni icmaları öz aktuallığını itirmişdir. İcma üzvləri olaraq da biz bu qərara gəldik ki, təşkilatın ictimai əhəmiyyəti bitmişdir. Azərbaycanlı və erməni icmalarının hansısa əhəmiyyəti yoxdur. Beləliklə də təşkilatın buraxılması haqqında qərar verdik. Bundan sonra əsas diqqətimizi Qarabağa qayıdış məsələlərinə yönəldəcəyik".

*T.Gəncəliyev əlavə edib ki, "Qarabağa dönüş" adlı İctimai Birliyinin fəaliyyəti Qarabağdakı quruculuq işlərinə, insanlarımızın ləyaqətli şəkildə öz torpaqlarına qayıtmasına dəstək vermək olacaq:* "Beləliklə, bu gün bütün Azərbaycanı və azərbaycanlıları düşündürən ən əsas məsələ işğaldan azad edilən ərazilərin tezliklə bərpa edilməsi və vaxtilə qaçqın, məcburi köçkün düşmüş sakinləri öz yurdyuvalarına qaytarmaqdır. Sevindirici haldır ki, "Böyük Qayıdış" sözləri ilə ifadə olunan bu müqəddəs missiyaya artıq start verilib. Bildiyimiz kimi, Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Şuşanın gözəlləşdirilməsi və onun bütün dünyada tanıdılması istiqamətində aparılacaq işlərin tərkib hissəsi olaraq biz də bu işdə öz töhfəmizi vermək istəyirik. Sevindirici haldır ki, artıq 30 illik vətən həsrətinə son qoyulub. Biz öz doğma torpaqlarımıza geri qayıtmağa hazırlaşırıq, özü də ləyaqətli şəkildə. Hesab edirəm ki, bu müqəddəs missiyaya "Qarabağa dönüş" adlı İctimai Birliyi öz töhfəsini verəcək. Əminəm ki, artıq Qarabağda yaşayan ermənilər də ölkəmizin siyasi, iqtisadi, sosial və mədəni həyatına reinteqrasiya olunacaq. Ümumiyyətlə, digər etnik azlıqlar kimi onların da Azərbaycan Respublikası Konstitusiyası və suverenliyi çərçivəsində firəvan şəkildə yaşayacağına əminik".

**Deputat vurğulayıb ki, artıq onların qarşısında yeni vizion, yeni missiya var:** "Əsas missiyamız Qarabağda dağıdılmış mədəni irsimizi, tariximizi bərpa etməkdir. Həmçinin vətəndaşlarımızın Qarabağın hər bir bölgəsində firəvan yaşaması üçün orada normal şəraitin yaradılması işinə öz töhfəmizi verək. Ümidvaram ki, yeni təsis olunmuş "Qarabağa dönüş" İctimai Birliyinin intellektual və potensial üzvləri bu işdə ən yaxşı səviyyədə təmsil olunacaqlar".

**Aynurə Pənahqızı**

# Belə də olmalıdır

*Erməni hərbçilərinin Qarabağı boşaltması prosesi davam edəcək"*



"Erməni silahlıları Qarabağda özləri üçün post qurur, səngər qazır, "təmas xətti" yaradırlar. Bu məsələ bizi çox narahat edirdi. Amma son günlər yayılan videolardan görünür ki, erməni hərbçilərinə məxsus texnikalar Xankəndidən Laçın dəhlizi vasitəsi ilə Ermənistana aparılır.

Belə informasiyalar cəmiyyətdə müsbət qarşılanır. Azərbaycan tərəfi heç bir halda razılıq verə bilməz ki, erməni hərbçiləri Xankəndidə qalsın".- Bu sözləri "Şərq TV"nin efirində millət vəkili, MCP sədri Razi Nurullayev deyib.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov ermənilərin Xankəndini boşaltması barədə fikirlərini "Şərq"lə bölüşüb:** "Bir müddət əvvəl hava hücumundan müdafiə sistemləri Qarabağdan çıxarıldı. İndi isə ağır texnikalar Qarabağdan, o cümlədən Xankəndidən aparılır. Yeni tərk-silah prosesi davam edir. Əlbəttə, belə də olmalıdır. Çünki Qarabağda silah qaldıqca, bu, müəyyən qüvvələrin təsiri ilə təxribat ehtimalını daim gündəmdə saxlayır. Silah nə qədər az olarsa, təhlükəsizlik, sabitlik də bir o qədər tez təmin olunar. Əslində həm sülhməramlıların, həm də Türkiyə-Rusiya birgə monitorinq mərkəzinin əsas məqsədi məhz sabitliyi təmin etməkdir".

**Ş.Ramaldanov, həmçinin bildirdi ki, Qarabağda qalmaq istəyənlər Azərbaycanın qanunlarına tabe olmalıdırlar:** "Ermənilərin ərazilərimizi boşaltması şərt deyil. Bunu dövlət başçısı İlham Əliyev də deyib. Kim istəyirsə, Azərbaycan vətəndaşlığını qəbul edib, ərazilərimizdə yaşaya bilər. Eyni zamanda silahlı birləşmələr də mütləq qanunlarımıza tabe olmalı və silahlı qüvvələrimizin tərkibində fəaliyyət göstərməlidir. Əks halda onlar qanunsuz hərbi birləşmələr, yəni terrorçular hesab olunur. Və belələri zərərsizləşdirilməlidirlər. Fikrimcə, problem tam həll olunanadək erməni hərbçilərinin Qarabağı boşaltması prosesi davam edəcək".

**Kənan**

## Mümkün qədər karantin qaydalarını sərtləşdirmək lazımdır

Evdə müalicə olunan aktiv xəstə sayı həddindən artıq çoxdur



**Bu gündən Gürcüstanda ictimai nəqliyyatın fəaliyyəti dayandırılır. Bu barədə Gürcüstan Nazirlər Kabinetinin mətbuat xidməti məlumat verib. Qərar ölkədə koronavirusla bağlı vəziyyətin pisləşməsi ilə əlaqədar qəbul edilib.**

"Yeni qaydalar mayın 3-dən 12-dək çəkəcək. Qadağa taksilərə və şəhərlərarası nəqliyyata təsir etməyəcək", - deyə kabinetdən bildirilib.

Mart ayından Gürcüstanda koronavirusa yoluxma artır. Aprelin ortalarından ölkədə koronavirusun 3-cü dalğası xəbərdarlığı edilib. Təəssüf ki, qardaş Türkiyədə də COVİD-19-a bağlı vəziyyət ürəkaçan deyil. Artıq Türkiyədə də tam qapanma başlayıb. Azərbaycanda yoluxma tədricən azalsa da, bayram günlərində vəziyyətin necə dəyişəcəyi çoxlarını düşündürür.

**Həkim, professor Adil Qeybulla düşünür ki, bir az da səbrli olmalıyıq. O, fikirlərini "Şərq"lə bölüşüb:** "Dünyada koronavirusun dördüncü dalğası yayılır, Hindistan ştammı meydana çıxıb. Rəsmi rəqəmlərin azalmasına "bel bağlamaq" olmaz. Evdə müalicə olunanların sayı heç də az deyil. Yəni aktiv xəstə sayı kifayət qədər çoxdur.

Başa düşürəm, insanlar beziblər. Lakin yumşalmalar sonradan ciddi fəsadlara səbəb olur, baha başa gəlir.

Odur ki, mümkün olduğu qədər karantin qaydalarını sərtləşdirmək lazımdır. Bu, vətəndaşların sağlamlığı üçündür".

**Kənan**

## Qarabağ savaşı cinayətləri araşdırılır




**Salih Kurt "ARB-24"-ə bu barədə danışıb.** Ötən həftə sonu Qarabağ Müharibəsi Cinayətlərini Araşdırma Komissiyasının Prezidenti Salih Kurt Türkiyədən "ARB-24" televiziyasının canlı efirinə qoşularaq komissiyanın yaranma zərurəti və gələcək fəaliyyət istiqamətlərindən ətraflı bəhs edib. O, Qarabağ bölgəsindəki insanlıq soyqırımının sadəcə adi bir soyqırım olmadığını, ermənilər tərəfindən həm də Qarabağdakı tarixi və mədəni irsin tamamilə məhv edildiyini, bunun bəşəriyyətə və insanlığa yaraşmayan bir günah, cinayət olduğunu vurğulayıb.

"Şərq.az" xatırladır ki, hazırda Qarabağ Müharibəsi Cinayətlərini Araşdırma Komissiyasının sıralarında dünyanın 36 ölkəsindən 120 tanınmış ekspert və hərbçilər, sabiq diplomatlar, tarixçi alimlər, nüfuzlu universitet rektorları və araşdırmaçı jurnalistlər var.

Onu da qeyd edək ki, Komissiyanın Prezidenti Salih Kurt Türkiyədə terrorçu Abdullah Öcalanı həbs etmə əməliyyatında böyük cəsarət nümayiş etdirib. O, bunun üçün Baş Nazirlik Yüksək Terror Məsləhət Heyətini toplayaraq, terrorçu Öcalanın həbsinə nail olunub.

**Mahmud Məmmədli**

# “Molla” obrazına girən qatillər ən ağır cəza almalıdır



## Baş verənlərin bütövlükdə dinlə heç bir aidiyyəti yoxdur

Ötən günlərdə Lerik rayonunun Barzavu kəndində yaşayan 1981-ci il təvəllüdlü Zəkifə Feyruz qızı Fərziyevanın yaşadığı evində üzərində xəsarət izləri olan meyiti tapılıb. Kənd sakinlərinin verdiyi məlumata görə, qətli törədən şəxsin kimliyi məlum olub.

Dəhşətli cinayəti həmin kənddə yaşayan və mərhum Z.Fərziyevanın qonşusu, Lerikin tanınmış din xadimlərindən biri Murad Əsgərov adlı şəxs törədib.

Məlumatda bildirilib ki, molla Murad Əsgərov qonşuluqda yaşayan Z.Fərziyevanın evdə tək olduğunu bilərək gizli şəkildə mənzilə girib və qadına qarşı əxlaqsız hərəkətlər etməyə başlayıb. 3 uşaq anası olan Z.Fərziyeva qışqıraraq ”evə oğru girib!” deyə qonşularını çağırıb. Qadının qışqırdığını görən M.Əsgərov cibində gəzdirdiyi bıçaqla Z.Fərziyevanın boğazını kəsərək, onu amansızlıqla qətlə yetirib.

**Baş verənlərin olduqca təəssüf doğurduğunu söyləyən ilahiyyatçı Hacı Atif İsmayılov ”Şərq”ə bildirib ki, son dövlər Azərbaycanda belə hadisələr çox yaşanır.**

İlahiyyatçı qeyd edib ki, öncə hadisəni din və dindarlıqla, molla və mollalıqla deyil, insanlıqdan kənar olan hərəkət kimi dəyərləndirmək lazımdır: ”Kim olursa olsun, belə qəddarlığa yol verilməməlidir. Son zamanlar ölkəmizdə müxtəlif faktlar və hadisələrlə rastlaşırıq. Buna səbəb insanlarda mərhəmətsizlik və insani keyfiyyətlərin itməsidir. Din pərdəsi ilə ”molla” obrazına girən, dini dəyərlərimizdən xəbəri olmayan, ancaq qəbir daşlarının yanında qalan bəzi ”insanlar” ”mollalığı” özlərinə qazanc yolu seçiblər. Tövsiyəmiz odur ki, dini cameəyə nəzarət edən qurumlar diqqətli olsun. Əlbəttə, belə hallar dini qurumların diqqətindən yayınmır. İstər Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, istərsə də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) tövsiyələrini yalnız dini bilikli mütəxəssislər və peşəkarlar həyata keçirirlər”.

**A.İsmayılovun sözlərinə görə, təəssüf ki, bəzən dini biliyi olmayan şəxslər rayonlarda və bölgələrdə ”fəaliyyət göstərirlər”:** ”Onlara nəzarət etmək mümkün deyil. Belə bir deyim var: ”Meşə çaqqalsız ola bilməz”. Lerikdəki ”mollanı” cinayət məsuliyyətinə cəlb etmək lazımdır. Bu insan din adı altında ”mollalıq” edirsə, müvafiq qaydada cərimələnməlidir. ”Qurani-Kərim”də belə bir ifadə var: ”Hər kim bir insanı bilərəkdən, heç bir səbəbi olmadan öldürərsə, elə bil ki, bütün insanları öldürüb. Onun cəzası cəhənnəmdir”. Kimisə öldürən şəxs həm Allah, həm də dövlət və hüquq qarşısında cinayətə məhkum olunmalıdır. Baş verənlərin bütövlükdə dinlə heç bir aidiyyəti yoxdur. Əslində dindən kənar olan insanlar din pərdəsi adı altında iyrənc əməllər edir. Ümid edirəm ki, haqq-ədalət öz yerini tutacaq, kimliyindən asılı olmayaraq belə əməl törədən şəxs məsuliyyətə cəlb olunmalıdır. Həmin şəxsə ən şiddətli cəza növləri tətbiq edilməlidir ki, başqalarına da ibrət olsun. İnanıram ki, dini sahəyə nəzarət edən qurumlar da öz tədbirlərini görəcəklər”.

**Yeganə Bayramova**



## Tədqiqatçılar xəbərdarlıq edib

### Marsdan götürülmüş nümunələr dünya üçün böyük risklər yaradır

**Tədqiqatçılar Mars taununun yayılması barədə xəbərdarlıq ediblər.**

”Şərq” xarici mətbuata istinadən xəbər verir ki, onlar Marsdan götürülən nümunələrdəki mikroorqanizmlərin insanların həssas olduğu yerlərdə ölümcül pandemiyaya səbəb ola biləcəyi barədə iddia irəli sürüblər. NASA və ESA ətraflı araşdırma aparmaq üçün Marsdakı qayalardan və torpaqlardan götürülmüş nümunələri Yerə gətirmək üçün birlikdə çalışır. NASA-nın açıqlamasına görə, Marsın zərər görməyən nümunələrini dünyaya qaytarmaq illərdir ki, alimlərin ən böyük arzularından biri olub. Bununla birlikdə, bəzi alimlər Marsdan götürülmüş nümunələrin dünya üçün çox böyük risklər yaratdığını iddia edirlər. 1975-1983-cü illərdə NASA-nın Viking proqramında mühəndis vəzifəsində çalışan Levin ”Daily Star”a verdiyi açıqlamasında Qırmızı Planetdə olan mikroorqanizmlərin Yer üçün həssas olduğu və dağıdıcı bir Mars taun pandemiyasına səbəb ola biləcəyini bildirmişdi: ”Nümunələr Yerə təhlükəsiz qablarda gətirilsə belə bəzilərinin konteynerin açılacağı təqdirdə laboratoriyadan qaçma ehtimalından narahatam. Marsın bioloji cəhətdən mürəkkəb bir mühiti var. Burada əldə edilən nümunələr dünyadakılara nəql edilərsə, o zaman çox böyük bioloji ziyana səbəb ola biləcək patogenlər və orqanizmlər meydana gələ bilər.

**Aynurə**



## "Çoxu hərəkət edib, gəzə bilmir"

### “181 nəfər İkinci Dünya müharibəsi iştirakçısı sağdır”

**Bir neçə gün sonra faşizm üzərində qələbənin 76-cı ili tamam olacaq.**

Qeyd edək ki, İkinci Dünya müharibəsində azərbaycanlılar xüsusi şücaət göstərib. Həmyerlilərimiz hünərləri ilə tarixə yazılıblar. Müharibə iştirakçılarından hələ də yaşayan, həmin tarixin canlı şahidləri var. Bəs görəsən, sayları nə qədərdir?

Bu barədə ”Şərq”ə danışan Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib ki, hazırda 181 nəfər İkinci Dünya müharibəsi iştirakçısı sağdır: ”Təxminən 96-97 yaşlarındadırlar. Yaşlı insanlardır. Çoxu hərəkət edib, gəzə bilmir, yaxud da danışmaqda çətinlik çəkir. Belə problemləri mövcuddur”.

**Samirə Ərəblinski**

# Peyvənd kişilərdə qısırlıq yaradırmı?

## Alimlər hazırda bu amili araşdırmaqdadır

COVİD-19 həyatımızdan çıxmadıqca onun müxtəlif tərəfləri, orqanizmə vurduğu ziyanlar daha çox öyrənilir. Artıq elm sübut edib ki, koronavirusa yoluxma və bu xəstəlikdən ölüm halları qadınlara nisbətən kişilərdə yüksək səviyyədədir. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, kişilər qadınlara nisbətən koronavirus xəstəliyini 50 faiz daha ağır keçirirlər.

Radiologiya üzrə mütəxəssis doktor Günər Sönməzin qeydinə görə, koronavirusdan ölüm halları qadınlarla müqayisədə kişilərdə 100-də 20 faiz daha çox müşahidə edilir. Yeni mülahizəyə əsasən orqanizmin immunsisteminin proteinləri olan sitokinlər X xromosomunun təsiri altındadır. Qadınlarda iki X xromosomu olduğu halda, kişilərdə sadəcə bir X xromosomu var. İki xromosoma malik olmaq protenlərin daha artıq miqdarda ”istehsalına” yol açır ki, bu da qadınlara üstünlük verir. Qadınların yaradlış etibarilə estrogen hormonuna sahib olması da immunsistemin gücləndirilməsində onlara əlavə avantaj verir. Mütəxəssis bildirir ki, COVİD-19-a qarşı ən güclü müdafiə hüceyrələri T lenfositlerdir. Bəyaz dairə şəklində olan bu hüceyrələr immunsistemin xüsusi hərəkət qüvvəsidir. T hüceyrələrin xüsusi növünə ”MAİT” deyilir. ”MAİT”lər virusu yaxalayıb yox edən hüceyrələrdir. Hər kimdə bu hüceyrələrin miqdarı çoxdursa, virusa qalib gəlir.



**Yoluxucu xəstəliklər üzrə mütəxəssis doktor Gökçe Dəmir də kişilərdə ölüm hallarının qadınlara nisbətən yüksək müşahidə edildiyini bildirirək tövsiyələrini açıqlayıb:**

- Kişilərdə ürək və damar xəstəlikləri daha artıq seyr edilir. COVİD-19-a yoluxanlar arasında orta yaşlı kişilər üstünlük təşkil edir. Peyvəndə qarşı olanların qısırlıqla bağlı əndişələri əsassızdır. Koronavirus peyvəndinin kişilərdə qısırlıq yaratmasına dair ortaya qoyulan arqumentlər doğru deyil. Qısırlıq məsələsi bundan əvvəl də qızılca, göyöskürək (boğmaca), tetanus peyvəndləri üçün də gündəmə gətirilmişdi. COVİD-19 xəstəliyi əsasən damarların iç - daxili divarını təşkil edən hüceyrələri hədəf alır. ”Kişilik”lə bağlı damarlar zərər görərsə, problem ortaya çıxır. Bu səbəbdən peyvənd deyil, xəstəliyin özü qısırlığa yol aça bilər.

**Məlahət Rzayeva**

# “Səninlə böləcək kişim yoxdur”

## Roza Elzaya daha sərt cavab verdi



Artıq uzun müddətdir ki, müğənni Roza Zərgərli və bəstəkar Elza Seyidcahan arasında yaşanan qalmaqal davam edir.

Əvvəlcə ”ATV Maqazin onlarla” verilişində R.Zərgərli E.Seyidcahanın ona borcunun olduğunu söyləyib. Ardınca E.Seyidcahan müğənninin ünvanına sərt sözlər deyərək hansısa borcunun olmadığını bildirib. R.Zərgərli yenidən sözügedən proqrama danışıb.

**”Şərq” xəbər verir ki, o, hiddətlənərək bunları deyib:** ”Ağıllı ol! Sənin üçün İlhamə Quliyeva deyiləm. Sən kimsən ki, o sözü deyirsən? Mən sənə haqq vermişəm ki, mənlə bağlı nədənsə danışasan? Hələ mən səni məhkəməyə verəcəm ki, bilinsin plastik əməliyyat etdirmişəm, ya yox? Səni rüsvayi-cahan edərəm.

Haramdasa plastik əməliyyatın olduğunu sübut etsən, o beş min manatı keçəcəm, üstündə 10 min manat da verəcəm. Hansı yaradıcılıqdan danışırsan?

Bəstəkar kimi təhsilin ola bilər. Yerdən qalxan uşaq da bəstəkarlıq edir. Sən mənim kitabımın təqdimatına gəlməsən, böyük itki olmazdı. Orada qiraətçilər, ədəbiyyat adamları, xalq artistləri var idi. Gözün məni götürmürsə bil ki, sənin üçün İlhamə deyiləm. Çünki səninlə böləcək kişim yoxdur. Sən onunla başqa şey bölürdün. Açıb danışaram”.

**Roza Zərgərli bəstəkarın müğənni Nərmin Kərimbəyova haqda dediklərinə də münasibət bildirib:** ”N.Kərimbəyova sənə kömək olmayacaq. O qız səndən ağıllıdır. Harada danışmaq lazım olduğunu bilir. Özünə oradan-buradan yardım istəmə. Mənə beş min manat borclusan. Abrına bükülməyini istəmirsənsə, sus. Əgər susmasan, vəkilimlə əlaqə yaradacam. Təzminat da verəcəksən”.

**Samirə Ərəblinski**

## “Müğənninin ailəsi olmamalıdır"

### Səidə: “Elə olanda hər şey dəyişir”



**Müğənni Səidə Sultan ”ATV maqazin onlarla” verilişinin ” 33 sual” rubrikasında qonaq olub. O, verilişdə həyatı və sənəti ilə bağlı danışıb.**

*”Şərq”in məlumatına görə, Səidənin atası onun müğənni olmasına icazə vermədiyini söyləyib:* ”Evdə 3 bacıydıq, hamımız uzun paltarlar geyinirdik. Təkcə mən ”şortik” geyinə bilərdim. Çünki oğlan kimi böyüdülmüşdüm. İlk dəfə oxumağa evdən qaçıb getdim. O da dedim, elə-belə oxuyum, yəqin müsabiqələri keçmərəm. Lakin bütün yarışlardan uğurla keçib Heydər Əliyev sarayına gəldim. Orada oxumalıydım. Atam gördü ki, mənimlə bacarmır, sənətdə irəliləyirəm. Dedi ki, Səidə, daşla çayın qarşısını kəsirsən, su hardan olsa keçib gedir: ”Mən də səni dayandıra bilmirəm”. Sonra qayıtdı ki, sənə evlənmək çətin olacaq. Söylədim ki, oxumağa razıyam. Məncə, müğənninin ailəsi olmamalıdır. Elə olanda hər şey dəyişir. Evli ikən solursan, dəbdən düşürsən. Sevgili ola bilər. Amma ailə ilə sənəti birgə aparmaq olmur. Ya səhnədə olmalısan, ya da ailədə. Mən də səhnədə xoşbəxtəm”.

**Samirə**

## Şəbnəmlə Vəfanın qovğası bitməyib

### “Böyükdən də böyük var. Ağıllı ol!”



**Bir müddətdir ki, həmkarı Vəfa Şərifova ilə qalmaqal yaşayan müğənni Şəbnəm Tovuzlu instaqram paylaşımı ilə diqqət çəkib.**

”Şərq” xəbər verir ki, Şəbnəm növbəti dəfə replika atıb. Şəbnəm ”Ağıllı ol” adlı mahnısından bir parça paylaşaraq bunları yazıb: ”Haqqımda danışmadan öncə barənizdə bildiklərimi xatırlayın. Etdikləri ilə kiçilənlər, sözləri ilə böyüdüklərini sanmasınlar. Böyükdən də böyük var. Ağıllı ol!”.

**Samirə**

## Əməkdar artist Pərviz Bağırov xəstəxanadan evə buraxılıb



**Beyin infarktı keçirən Əməkdar artist Pərviz Bağırov evə buraxılıb.**

Bu barədə APA-ya aktyorun bacısı Fərizə Bağırova məlumat verib.

O, P. Bağırovun iki gün öncə evə buraxıldığını, hazırda səhhətinin yaxşılaşmağa doğru getdiyini deyib: ”Müalicəsini iki həftə ev şəraitində davam etdirəcək. İki həftə sonra isə fizioterapeya üçün yenidən xəstəxanaya yerləşdiriləcək”.

Aktyorun bacısı ailəsi adından Heydər Əliyev Fonduna və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib.

*Qeyd edək ki, beyin infarktı keçirən Əməkdar artistin müalicəsini Heydər Əliyev Fondu nəzarətə götürmüşdü. O, ”Bona Dea International Hospital” klinikasında müalicə olunurdu.*

# Artıq ilkin siyahılar hazırdır

## *Artıq ilkin siyahılar hazırdır*




""Qırmızı kitab"ın III nəşri ilə bağlı redaksiya heyəti yaradılıb".

APA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru İradə Hüseynova deyib. O bildirib ki, bu nəşrlə bağlı iş proqramı hazırlanıb:

”Proqramda əsas məqsəd nadir və itməkdə olan bitki, göbələk və heyvan növlərinin siyahısının dəqiqləşdirilməsi, tərtib olunan siyahıların nəzərdən keçirilməsinin təmin edilməsidir. Artıq mühafizəyə ehtiyacı olmayan növlərin bu siyahıdan çıxarılması və ehtiyac olanların siyahıya əlavə olunması, həmin növlərin populyasiyasının müəyyənləşdirilməsi, GPS məlumatların dəqiqləşdirilməsi və ətraf mühit faktorlarının təsirinin öyrənilməsi həyata keçiriləcək”. Vitse-prezidentin sözlərinə görə, artıq ilkin siyahılar hazırdır: ”III nəşrə 600-dən çox bitki növünün salınması nəzərdə tutulur. Yeni nəşrdə göbələk növlərinin də sayı artacaq”.

**İ. Hüseynova qeyd edib ki, 30 il müddətində işğaldan azad olunmuş ərazilərdəki məhv olan bitki, göbələk və heyvanların sayı barədə məlumat demək olar ki, olmayıb:** ”Yeni nəşrdə həmin ərazilərdəki kitaba salınacaq növlərlə bağlı monitorinqlərə başlayacağıq. Artıq Zəngilanda müəyyən marşrutlar üzrə ilkin radio-ekoloji monitorinqlər keçirilib. Botaniki tədqiqatlara cüzi də olsa baxılıb. Su və torpaq nümunələri ilə bağlı ilkin işlər görülüb. Qeyd edim ki, Şuşada ”Qırmızı Kitab”a düşəcək bir neçə bitki növü var”. Qeyd edək ki, ”Qırmızı Kitab”ın III nəşrinin 2023-cü ildə dövlət başçısına təqdim olunması planlaşdırılır.

## Hər kəs kövrəldi

### İbrahim Borçalı mərhum oğlunun fotosunu paylaşdı



**Tanınmış müğənni İbrahim Borçalı bir müddət öncə avtomobil qəzasında dünyasını dəyişən Rəhimin fotosunu paylaşıb.**

”Şərq” xəbər verir ki, sənətçinin paylaşımı hər kəsi kövrəldib. Onun izləyiciləri ilə yanaşı, sənət dostları da posta rəylər yazıblar.

Sahib İbrahimov: Yaraşıqlı, gözəl balam, heyif səndən. Nə deyib, nə danışaq?!

Bahar Lətifqızı: Can, ay İbrahim, nur içində yat.

Samirə

## Ağciyərlərinin 90 faizi buzlaşıb

### Arif Quliyevin səhhətində ciddi irəliləyiş yoxdur



**”Arif Quliyevin vəziyyəti ağır stabil olaraq qalmaqda davam edir, səhhətində elə bir ciddi irəliləyiş yoxdur”.**

Bunu APA-ya açıqlamasında ”Yeni Klinika”nın reanimasiya şöbəsinin müdiri Emil Qasımov deyib.

O, aktyorun ağciyərlərinin səksən-doxsan faiz buzlaşdığını deyib: ”Hazırda süni tənəffüs aparatındadır, intensiv müalicəsi davam edir. Hər şey zamandan asılıdır”.

*Qeyd edək ki, koronavirus infeksiyasına (COVID-19) yoluxan Xalq artisti ”Yeni Klinika”da müalicə edilir.*

# Körpə olarkən yetimxananın qapısına atılıb

## İndi onu bütün dünya tanıyır!

(Əvvəli səh: 16-da)



Şuelinin dərisinin rəngi hədsiz bəyazdır, saçları, kirpikləri də çox açıq rəngdədir və günəş şüalarına qarşı çox həssasdır. Amma bəzilərinə həyatda problemlər yaradan bu özəllik Şuelinin həyat yolunu, əksinə, yüksəklərədək açıb. Hazırda 16 yaşında olan Şuelinin dünyanın məşhur modelyerlərinin libasları ilə çəkdirdiyi fotolar məşhur "Vouge" dərgisinin səhifələrini bəzəyir.

Şueli həyat hekayəsini belə anladıb: "Yetimxanada mənə Şue Li adını qoyublar. Şue qar deməkdir, Li də gözəl. 3 yaşım olanda hollandiyalı bir ailə məni övladlığa götürdü. O vaxtdan bəri anam və bacılarımla Hollandiyada yaşayıram. Anam adımı eşitdikdə dedi ki, bundan gözəl ad ola bilməz. Həm də bu ad mənim çinli olmağıma işarədir. Dünyaya gəldiyim vaxt Çin hökuməti hər ailədə 1 övlad siyasətini yürüdürdü. Albinizmli bir uşağın olması isə Çində böyük şanssızlıq hesab edilir. Bəziləri mənim kimi atılır, bəziləri də bağlı qapı arxasında, hər kəsdən gizli saxlanılırdı. Məktəbə göndərmək istəyirdilərsə, saçlarını qara rəngə boyayırdılar. Amma Afrikada daha dəhşətlidir. Albinizmli uşaqları "ovlayırlar". Qollarını, ayaqlarını kəsir, öldürürlər. Cadugərlər onların sümüklərindən dərman vasitəsi əldə etmək üçün istifadə edir, bəzi insanlardan da bunun sağlamlıqlarına xeyir gətirəcəyinə inanır. Amma əlbəttə, bunların heç biri gerçək deyil, hamısı mövhumat, cahillikdir. Mən isə sadəcə küçəyə atıldığım üçün şanslı oldum". Şue Li doğum tarixi ili dəqiqləşsin deyə, 1 il əvvəl əlini rentgen etdirib. Rentgen nəticəsində həkimlər Şue Linin 15 yaşını olduğunu təsbit ediblər. Modellik işinə isə 11 yaşındaykən başlayıb. İlk dəfə Honq-Konqdakı moda yarışmasına qatılıb və bundan sonra foto çəkilişlərə dəvətlər almağa başlayıb. Foto studiyalardan biri Brok Elbankın Londondakı studiyası olub. Oradakı çəkilişdən sonra Şue Linin fotosu instagramda paylaşılıb. Zebedee Talent moda agentliyi Şue ilə əlaqə yaradıb və onu moda dünyasına çalışmağa dəvət edib. Şue Li deyir ki, 1.80 boylu, incə modellər dəbdədir, lakin artıq fərqli görünüşlərdə olanlar da moda dünyasına gəlir. Albinizmli modellərdən adətən mələk, ya da ruh mövzulu çəkilişlərdə istifadə edilməsi Şue Lini üzür: "Bu yanaşma dəyişməlidir. Bizi digər insanlardan fərqləndirən sadəcə rəngimizdir", deyir. Şue Li çəkilişlərin onu çox yorduğunu, işıqlara çox baxa bilmədiyini, gözlərinin acıdığını söyləyir. Şue Linin meneceri də var. Və o, bəyaz mələyin çəkilişlərdə çox yorulmasına izn vermir. Şue Linin istəyi isə budur: "kiməsə aşağılayıcı tərzdə "albinos" deməsinlər, "albinizmli insan" desinlər".

**Məlahət Rzayeva**

### Təbrik edirik!



**Hər bir el-oba tanınmış nəsilləriylə, o nəsildən çıxmış ziyalıları ilə tanınır.** Belə nəsillərdən biri də bizim doğma Qazaxımızın Şıxlı kəndində Kələşovlar nəslidir. Bu nəsil əsl ziyalı bir nəsildi. Bu nəsildən çıxanların əksəriyyəti intellektualdır. Bu nəslin gözəl ziyalısı, el ağsaqqallarından biri də Kələşov **Musa müəllimdir.** Musa müəllim orta məktəbdə mənim sevimli müəllimlərimdən olub. Kənddən çıxan elm adamlarının, aydınların yetişməsində Musa müəllimin böyük əməyi, zəhməti olub. Musa müəllim həm də bir el ağsaqqalıdır. Sözün həqiqi mənasında kənd camaatı onun bir ağsaqqal kimi öyüd-nəsihətinə qulaq asırlar və əməl edirlər. O, ictimai işlərdə yaxından iştirak edir. Kəndin abadlaşdırılmasında öz məsləhətlərini verir. Musa müəllim gözəl ailə başçısıdır. Çünki o, övladlarını əsl vətəndaş kimi böyüdüb. Hamısının mükəmməl təhsil alması, cəmiyyətdə öz yerini tapıb, ölkəmiz, dövlətimiz üçün faydalı bir şəxsiyyət olmaları üçün ata kimi üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirib. Ona görə də övladlarının hər biri ali təhsil alıb. Bu gün onlar vətənə nümunəvi xidmət göstərirlər.

Təvazökarlıq, humanistlik, xeyirxahlıq, yardımsevərlik onun həyat kredosudur. M.Kələşov cəmiyyət üçün bir etalondur. O, yüksək insani mədəniyyəti, yüksək intellekti və yüksək xüsusiyyətləri ilə həmişə seçilir.

Əzizim Musa müəllim, sizi 80 illik yubileyiniz münasibəti ilə təbrik edirəm. Sizə uzun ömür, can sağlığı arzulayıram.

**Hörmətlə, Vəli Xramçaylı**

# Brüs Liyə həsr olunan smartfon hazırlanıb

## Çin bazarında satışa çıxarılan smartfonun qiyməti 2799 yuan təşkil edir



**"Xiaomi" şirkəti Brüs Liyə həsr edilən xüsusi versiyasını təqdim edib. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, smartfonun adı "Redmi K40" adlanır.**

Yeni smartfon xüsusiyyətlərinə görə orijinal qurğudan fərqlənmir. Lakin sarı-qara rəngli korpusa malik qurğunun arxa panelində "Brüs Li kunq-fu kralıdır" (Bruce Lee - king of kung fu) yazısı həkk olunub. "Redmi K40 Bruce Lee Special Edition" smartfon dərsinə qoruyucu çərçivə, enerjidoldurma adapteri və kabel daxildir - bütün aksessuarlar sarı rəngdədir. Bundan başqa, smartfon qutusuna əfsanəvi döyüş ustasına həsr olunan broşür qoyulub. Xüsusi "Redmi K40" versiyası 12 gigabaytlıq operativ və 256 gigabaytlıq quraşdırılmış yaddaşlı olmaqla bir versiyada təklif olunur. Çin bazarında satışa çıxarılan smartfonun qiyməti 2799 yuan təşkil edir.

**Aynurə**

# Azercell ilk Onlayn Qadın Festivalının rəqəmsal tərəfdaşıdır

Mayın 6-8-də Azərbaycanda ilk dəfə olaraq "Azercell Telekom" MMC-nin rəqəmsal tərəfdaşlığı ilə Onlayn Qadın Festivalı baş tutacaq. Qadınların müxtəlif sahələr üzrə maariflənməsinə imkan yaradacaq toplantı http://qadinfest.az/ platforması üzərindən həyata keçiriləcək.




İlk Onlayn Qadın Festivalında xanımları maraqlandıracaq çoxşaxəli mövzular müzakirəyə çıxarılacaq. Üç gün ərzində onlayn platforma üzərindən karyera, təhsil, sağlamlıq, gözəllik, psixologiya, uşaqlarla davranış və s. kimi mövzular barədə tanınmış peşəkar mütəxəssislərin canlı çıxışı baş tutacaq. Eyni zamanda, yoqa, fitness, pilates, rəsm, mətbəx və s. sahələrində master-klasslar təşkil olunacaq. Yerli və beynəlxalq spikerlərin çıxış edəcəyi festivalda özünü inkişaf, qadınların hüquqlarının qorunması, sosial və digər məsələlər də gündəmdə olacaq. Festivalın hər günü isə tanınmış və sevilən ifaçıların çıxışı ilə başa çatacaq.

Azercell bu maraqlı festival zamanı canlı yayımların keyfiyyətli və sürətli internet vasitəsilə ötürülməsinə nəzarət edəcək. Festival boyunca http://qadinfest.az/ saytının ana səhifəsinə Azercell-in brendi ilə onlayn köşk yerləşdiriləcək və buradan birbaşa mobil operatorun saytına keçid etmək mümkün olacaq.

Festivalın ən maraqlı məqamlarından biri də sual-cavab sessiyasının keçirilməsidir. Belə ki, tədbir zamanı təşkil olunacaq viktorinada sualların hamısına düzgün cavab verən iştirakçılara müxtəlif qiymətli hədiyyələr təqdim olunacaq. Festivalın rəqəmsal tərəfdaşı olan "Azercell Telekom" MMC də öz tərəfindən viktorina qaliblərindən birinə iPhone SE smartfonunu hədiyyə edəcək. İlk onlayn qadın festivalına qoşulmaq üçün http://qadinfest.az/ saytında qeydiyyatdan keçmək lazımdır. Tədbirlə əlaqədar xəbərləri festivalın Facebook https://www.facebook.com/events/197724505153756 və İnstaqramdakı https://www.instagram.com/qadin_fest/ səhifəsindən izləmək olar. Festivalda iştirak ödənişsizdir.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şeyməm Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 817

## Polislərdən nümunəvi addım...

### Yeməksiz qalan heyvanlara yardım etdilər



**Türkiyənin Ərzurum vilayətindəki Uzundere səmtində olan polis qrupları 29 aprel tam qapanmadan sonra yemək tapmaqda çətinlik çəkən sahibsiz heyvanlara yardım ediblər.**

"Şərq" "Cnnturk.com"a istinadən xəbər verir ki, polis məmurları öz imkanları ilə aldıqları yeməyi rayon mərkəzindəki sahibsiz heyvanların tapıldığı yerə gətiriblər. Polislər küçə heyvanlarını əlləri ilə bəsləyərək, onlara çörək və süd veriblər.

**Yeganə**

## Unudulmaz uçuş...

### Hamilə olduğunu bilməyən qadın təyyarədə doğdu



**ABŞ-ın "Salt Lake City" ərazisindən təyyarəyə minən Lavinia Mounga həyatı boyunca unudulmaz bir uçuş təcrübəsi yaşayıb.**

İngiltərənin "Mirror" qəzetindəki xəbərə görə, qadın hamilə olduğunu bilmədən təyyarədə doğub.

"Şərq" "Hurriyet.com"a istinadən xəbər verir ki, xoşbəxtlikdən təyyarədəki sərnişinlərdən biri tibb bacısı olduğu üçün doğuş uğurlu keçib. Körpənin 26-27 həftəlik olduğu açıqlanıb. Ana və Raymond adı verilən körpə təyyarədən ənən kimi xəstəxanaya aparılıb və vəziyyətlərinin yaxşı olduğu deyilir. Körpənin atası feysbuk hesabında oğlunun gəlişindən təəccübləndiyini yazaraq onu "möcüzə" adlandırıb.

**Yeganə**

## Minlərlə insan əyləndi

### Dünyaya fəlakət saçan Çin indi festivalın kefini çıxarır



**Dünyanı koronavirus bəlasına salan Çinin Vuhan şəhərində "Çiyələk" Musiqi festivalına 10 minlərlə insan qatılıb. Kommunist Çin rejimi 5 günlük 1 May şənlikləri elan edib.**

Bayramın ilk günündə Vuhanda musiqi festivalı təşkil edilib, on minlərlə insan əylənib, musiqi dinləyib rəqs ediblər. Festivala qatılanların əksəriyyətinin maskasız olduğu da diqqətdən qaçmayıb. "Röyter" agentliyinə açıqlama verən festival rəsmilərindən biri deyib ki, tamaşaçı sayının az olmasına çalışıblar: 11 min seyrçi! CNN Türk-ün xəbərinə görə, son aylar ərzində Çində sadəcə bir neçə yoluxma halı baş verib. Belə vəziyyət xalq arasında virus qorxusunun xeyli azalmasına səbəb olub. Rəsmi mənbələr Çində bu günə qədər 90 min 686 nəfərin koronavirusa yoluxduğunu, 4 min 636 nəfərin vəfat etdiyini açıqlayıb. Dünyada isə artıq milyonlarla insan koronavirusdan vəfat edib. Dünyaya fəlakət saçan Çin isə indi festivalın kefini çıxarır.

**Məlahət**

## Müəllim dərs zamanı beyin qanaması keçirib

### İki gün sonra isə xəstəxanada vəfat edib



**Bu günlərdə Türkiyənin Muğla şəhərinin Bodrum vilayətində distant tədris zamanı gənc müəllim Esra Karamanın səhhəti pisləşib.**

"Şərq" "Habertürk"ə istinadən xəbər verir ki, o, şagirdlərinin gözü önündə beyin qanaması keçirib.

Hadisədən dərhal sonra Dənizlidəki xəstəxanalardan birinə aparılan Esra Karaman reanimasiyaya yerləşdirilib. İki günlük mübarizədən sonra o, vəfat edib.

**Kənan**



# Körpə olarkən yetimxananın qapısına atılıb

### *İndi onu bütün dünya tanıyır!*





**Dünyaya dəb diktə edənlərlə çəkilmiş fotoları ilə tanınan 16 yaşlı qız! Ona "bəyaz adam" da deyək olar.**

Fərq etdiniz artıq. Şuelli albinosdu. Elə buna görə də körpə ikən valideynləri onu yetimxana qapısının önündə qoyub, çıxıb gediblər. Çox güman ki, ata-anası Çində müəyyən bir təbəqənin "albinos uşaq uğursuzluq gətirir" inancının qurbanı olublar. Bəli, məhz qurbanı! Çünki onların "uğursuz" saydıqları, əslində isə sadəcə albinizm özəlliyinə məxsusluğuna, dərisinin rənginə, görünüşünə görə adi insanlardan fərqlənən uşaq böyüyüb məşhur model oldu.

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Şueli doğum gününün tarixini bilmir. Bu günlərdə böyük ehtimalla, onun üçün rəmzi ad günü keçirilib. Məlumdur ki, albinizm dünyada nadir rast gələnən qeyri-adiliklərdən biridir. Albinizm orqanizmdə dəriyə, saçlara, qaş və kirpiklərə rəng verən piqmentin olmamasıdır. Bu isə genetik hesab edilir. Çox güman ki, Şuelinin valideynlərinin genetik kodunda albinizmə səbəb ola biləcək genlər mövcud imiş.

*(Davamı səh: 15-də)*

## Minarəni gah ucaldır, gah da yatırırlar

### *Yerli xalq qəribə vasitəyə əl atıb*





**Rizənin İkizdərə bölgəsinə bağlı Qarzavan yaylasında yerli xalq qəribə vasitəyə əl atıb.**

Polad çəlləkləri bir-birinə keçirərək 7 metr hündürlüyündə minarə düzəldiblər. Soyuqlar başlayanda, qış aylarında, çəlləkləri don atmasın deyə, minarəni əyib yerə uzadırlar. Eləki, havalar istiləşməyə başlayır, yaz gəlir, soyuqların geri qayıtmayacağından əmin olurlar, minarəni təkrar qaldırıb ucaldırlar. Çəlləklərdən ibarət minarəsi olan came Qarzavan yaylasındakı bir mərtəbəli yeganə ibadət evidir. Bu minarəni əyalətə bağlı Meşəköy sakinləri düzəldib. Qışda zərər görməsin deyə, yerli xalq minarəni xüsusi dəzgahla yerə yatırır, yazda təkrar qaldırır. Meşəköy muxtarı Əhməd Tığcı deyir ki, 10 il əvvəl camenin minarəsi şaxta, don səbəbindən 2 dəfə yıxıldı: "Biz də bu üsulu düşündük. Polad çəlləkləri bir-birinə keçirib qaynaq etdik, belə bir sistem qurduq. Yayladan sonuncu ayrılan kimsə, minarəni də o yerə endirir. Beləcə zəhmətdən qurtulmuş oluruq" (Milliyet.com).

**Məlahət**

## 500 mindən çox bəyənmə yığıb

### İrina yeni paylaşımı ilə diqqətləri özünə çəkib



**Rusiyalı model İrina Şeyk sosial şəbəkədə yeni paylaşımı ilə diqqətləri özünə çəkib.**

35 yaşlı gözəlçə açıq-saçıq geyimlə güzgü qarşısında dayanıb. Sportinfo.az xəbər verir ki, onun fotoları 500 mindən çox bəyənmə yığıb. Tatar əsilli aktrisa 2007-ci ildə "Sport İllüstrated" dərgisi üçün poza verib. Bu çəkilişlər ona çox uğur qazandırıb. İrina uzun müddət Portuqaliya millisinin və "Yuventus"un ulduzu Krİştianu Ronaldo ilə sevgili olub.